# Avropa Şurasının 2018-2023-cü illər üçün Gender Bərabərliyi Strategiyası

Bu sənədin təkrar nəşri və ya tam və ya müəyyən hissələrinin tərcüməsinə dair bütün xahişlər Kommunikasiya Direktorluğuna (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır. Bu sənədlə bağlı bütün digər yazışmalar Ümumu Demokratiya Direktorluğuna ünvanlanmalıdır.

© Avropa Şurası, 2018

*Bu sənəd Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində Azərbaycan dilinə tərcümə olunmuşdur.*

**Mündəricat**

**GİRİŞ. Avropa Şurası və gender bərabərliyi** ................................................................ 3
Avropa Şurasının hüquqi sənədləri ........................................................................................ 4
Avropa Şurasının "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası" .............. 5
Avropa Şurasının "2018-2023-ci illər üçün yeni Gender Bərabərliyi Strategiyası" ........ 6
Avropa Şurası qlobal kontekstdə: BMT-nin 2030-cu il üçün "Dayanıqlı İnkişaf Gündəliyi" ........................................................................................................................ 8

**I. HƏDƏF VƏ STRATEJİ MƏQSƏDLƏR** ................................................................ 9
1-ci strateji məqsəd: Gender stereotiplərinin və seksizmin qarşısının alınması və onlarla mübarizə aparılması ................................................................................................ 10
2-ci strateji məqsəd: Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə aparılması ...................................................................... 13
3-cü strateji məqsəd: Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi ................................................................................................................ 15
4-cü strateji məqsəd: Siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması ........................................................................................ 16
5-ci strateji məqsəd: Miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların hüquqlarının qorunması ................................................................................................ 17
6-cı strateji məqsəd: Bütün siyasət və tədbirlərdə gender bərabərliyinin nəzərə alınmasına nail olmaq ................................................................................................ 19

**II. İNSTİTUSİONAL STRUKTUR, RESURSLAR VƏ İŞ METODLARI** ................ 22

**III. TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİ** ................................................................ 23

**IV. KOMMUNİKASİYA** ................................................................................................ 24

**ƏLAVƏ I. Risklərin idarə olunması və Strategiyanın milli səviyyədə həyata keçirilməsi** ................................................................................................................ 25

**ƏLAVƏ II. Qısaltmaların siyahısı** ................................................................................ 31

## GİRİŞ: Avropa Şurası və gender bərabərliyi

1. Gender bərabərliyinə nail olmaq Avropa Şurasının aşağıdakı missiyasını yerinə yetirməsi üçün vacibdir: insan hüquqlarının təmin edilməsi, demokratiyanın qorunması və qanunun aliliyinin qorunub saxlanması.

2. *Gender bərabərliyi qadınların və kişilərin, qızların və oğlanların hüquq bərabərliyinə, eləcə də, ictimai və şəxsi həyatın bütün sahələrinə onların eyni dərəcədə cəlb olunmasına, eyni imkanlara, məsuliyyətə və iştirakçılığa malik olmasına səbəb olur.* O həm də qadınların və kişilərin resurslara bərabər çıxış imkanlarını və resursların onlar arasında bərabər bölüşdürülməsini nəzərdə tutur.

3. Son onilliklərdə bu sahədə tərəqqi nəzərə çarpsa da və Avropadakı qadınların hüquqi vəziyyəti, şübhəsiz ki, yaxşılaşsa da, qadınlar və kişilər arasında effektiv bərabərlik reallığa çevrilməkdən uzaqdır. Gender münasibətlərində boşluqlar və struktur maneələri bir çox sahələrdə qalmaqdadır ki, bu da qadınların və kişilərin imkanlarını onların ənənəvi rolları ilə məhdudlaşdırır və həmçinin qadınların əsas hüquqlarından istifadə etmək imkanlarını məhdudlaşdırır. Mütəmadi monitorinq və araşdırmalar göstərir ki, qadınların siyasi həyatda iştirakı, ədalət mühakiməsinə çıxış imkanı və zərərli gender stereotiplərinin və seksizm yanaşmasının aradan qaldırılması məsələsində irəliləyiş çox ləngdir. Qadınlara qarşı zorakılıq qadınlar və kişilər arasında münasibətlərdə səlahiyyətlərin qeyri-bərabərliyinin ən çox qeyd edilən təzahürlərindən biri olaraq qalır. Bu həm qadınların insan hüquqlarının pozuntusudur, həm də gender bərabərliyi qarşısında mühüm maneədir.

4. İqtisadi çətinliklərin artdığı və nəticədə sərt qənaətcillik siyasətinin və tədbirlərinin, siyasi qeyri-müəyyənliyin mövcud olduğu, habelə cəmiyyətin bütün səviyyələrində qeyri-bərabərliyin artdığı hazırkı şəraitdə qadınların icmalara, cəmiyyətlərə və iqtisadiyyatlara əhəmiyyətli töhfə verdiyini qəbul etmək və baha başa gələn gender bərabərsizliyi problemini həll etmək vacibdir. Millətçilik və populizmin artması və bunun qadın hüquqlarına qarşı hücumlara səbəb olması, miqrantların və qaçqınların axını, gender bərabərliyi mexanizmləri və siyasəti üçün resursların azalması və razılaşdırılmış standartların tətbiq edilməməsi kimi amillər cəmiyyətin qadın və kişilərin bərabər hüquqlarına və gender bərabərliyinə tam hörmət edilməsi istiqamətində irəliləməsi qarşısında yeni çətinliklər yaradıb və mövcud problemlərin bəzilərini daha da ağırlaşdırıb. Həmçinin qadınların və kişilərin hüquq bərabərliyinin həyata keçirilməsi üçün sosial və iqtisadi şəraitin yaradılmasına, o cümlədən qadınların iqtisadiyyata daha geniş şəkildə cəlb olunmasına və onların iqtisadi müstəqilliyinin artırılması üçün imkanların yaradılmasına yetərincə diqqət yetirmək lazımdır.

5. Avropa Şurasının insan hüquqları və gender bərabərliyi sahəsində təşəbbüskarlıq fəaliyyəti sanballı hüquqi və siyasət bazasının formalaşması ilə nəticələnib. Gender bərabərliyi həm cari, həm də yeni meydana çıxan problemlərin həll edilməsi və tam gender bərabərliyinə nail olmaq, qarşısındakı maneələrin aradan qaldırılması işinə bütünlüklə sadiq olan Təşkilatın prioritetlərindən biridir.

6. Bu işi yerinə yetirərkən Avropa Şurası aşağıdakıları əhatə edən ikişaxəli yanaşmanı qəbul edir:

- gender bərabərliyinin *de facto* reallaşdırılması üçün konkret siyasət və tədbirlərin qəbul edilməsi, o cümlədən lazımi hallarda qadınların vəziyyətini yaxşılaşdırmağın tələb olunduğu mühüm sahələrdə pozitiv tədbirlərin görülməsi; və

- bütün siyasət və proqramlarda gender məsələlərinin nəzərə alınması prosesinin təşviqi, monitorinqi, koordinasiyası və qiymətləndirilməsi[1] – burada gender məsələlərinin nəzərə alınması dedikdə siyasət proseslərinin elə təşkili, təkmilləşdirilməsi, inkişafı və qiymətləndirilməsi nəzərdə tutulur ki, siyasətin hazırlanması prosesində adətən iştirak edən subyektlər gender bərabərliyi perspektivlərini bütün səviyyələrdə və bütün mərhələlərdə öz siyasətlərinə daxil edə bilsinlər.[2]

7. Tarixən qadınlar və kişilər arasında münasibətlərdə səlahiyyətlərin qeyri-bərabərliyi kişilərin qadınlar üzərində hökmranlıq etmələrinə, onları ayrı-seçkiliyə məruz qoymalarına və qadınların tam inkişafının qarşısının alınmasına gətirib çıxarıb. Lakin həm qadınlar, həm də kişilər onların tam potensiallarını məhdudlaşdıran stereotiplərin qurbanıdırlar.

8. Gender bərabərliyinə nail olunması prosesinə kişilərin və oğlanların cəlb olunması olduqca önəmlidir. Həmçinin kişilərin və oğlanların da gender bərabərsizliyinin təsirinə məruz qalması siyasətin hazırlanmasında nəzərə alınmalıdır.

**Avropa Şurasının hüquqi sənədləri**

9. Avropa Şurasının insan hüquqları və gender bərabərliyi sahəsindəki işi üzv dövlətlərdə və onların xaricində qadınların imkanlarının genişləndirilməsinə və gender bərabərliyinin effektiv reallaşdırılmasına nail olmağa yönələn dolğun hüquqi sənədlərin[3] və siyasətə dair təlimatların[4] hazırlanması nəticələnib.

10. Avropa Şurasının Nazirlər Komitəsi və Parlament Assambleyası tərəfindən Avropada və bütün dünyada gender bərabərliyinin inkişafına istiqamət verən və təsir göstərən çoxlu sayda konvensiya və tövsiyələr qəbul edilib.

11. Avropa Insan Hüquqları Konvensiyası (Konvensiya) Avropanın insan hüquqlarına dair əsas müqaviləsidir: Konvensiyanın 1-ci maddəsi Avropa Şurasına üzv olan 47 dövlətin yurisdiksiyası daxilində olan hər həs üçün Konvensiyada yer alan hüquq və azadlıqları təmin edir. Cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkiliyin yolverilməzliyi prinsipi Konvensiyanın 14-cü maddəsi ilə və 12 saylı Protokolu ilə təmin edilir. Bundan əlavə, Avropa Sosial Xartiyası ayrı-seçkilik olmadan iqtisadi və sosial hüquqlardan istifadə edilməsini təmin edir. Avropa Şurasının Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Konvensiyası (İstanbul Konvensiyası) qadınlara qarşı zorakılığın və məişət zorakılığının bir çox formaları ilə mübarizə aparılması üçün çoxları tərəfindən hərtərəfli beynəlxalq sənəd kimi tanınır. Bundan başqa, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası cinsi istismar, əməyin istismarı, və digər növ istismar məqsədləri üçün qadın, kişi və uşaq alverinin qarşısının alınması və onunla mübarizə aparılması məqsədini daşıyır, Avropa Şurasının Uşaqların seksual istismardan və seksual zorakılıdan müdafiəsi haqqında Konvensiyası (Lanzarot Konvensiyası) isə uşaqlara qarşı seksual hüquq pozuntularının bütün formalarının kriminallaşdırılmasını nəzərdə tutan ilk müqavilədir.

---

[1] Nazirlər Komitəsinin "Gender bərabərliyi standartları və mexanizmləri haqqında" üzv dövlətlərə CM/Rec(2007)17 saylı tövsiyəsi.

[2] Avropa Şurasının Gender məsələləri üzrə mütəxəssislər qrupu, 1998-ci il.

[3] Bu "Strategiya" sənədində beynəlxalq müqavilələrə və digər sənədlərə edilən istinadlar bu "Strategiya" sənədini dəstəkləyən üzv dövlətlərin beynəlxalq hüquq əsasında adı çəkilən beynəlxalq müqavilələrin iştirakçısı olmadıqları halda həmin müqavilələri yerinə yetirmək öhdəliyini götürmələri kimi qəbul edilməməlidir.

[4] Qadınlar və kişilər arasında bərabərlik məsələlərinə görə məsul nazirlərin iştirakı ilə Avropa Şurasının 7-ci konfransı: "Real gender bərabərliyinə nail olmaq üçün hüquqi və *de facto* gender bərabərliyi arasındakı uyğunsuzluğun aradan qaldırılması" (25 may 2010-cu il, Bakı; Azərbaycan); və Nazirlər Komitəsinin bəyannaməsi: "Gender bərabərliyini reallığa çevirmək", 12 may 2009-cu ildə Mariddə (İspaniya) qəbul edilib.

12. Gender bərabərliyi ilə bağlı Nazirlər Komitəsinin tövsiyələri və Parlament Assambleyasının qətnamələri[5] cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkiliyə qarşı mübarizə, seksizm ifadələrinin aradan qaldırılması, qadınların zorakılıqdan müdafiə edilməsi, siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması, təhsil, idman, media və audiovizual sektorda gender bərabərliyinin nəzərə alınması, gender bərabərliyi standartlarının və mexanizmlərinin təmin edilməsi, əlilliyi olan qadınların və qızların hüquqlarının qorunması və təşviq edilməsi, media sahəsində gender bərabərliyinin təmin edilməsi kimi ən müxtəlif məsələləri əhatə edir. Onlar üzv dövlətlərin gender bərabərliyi sahəsində beynəlxalq səviyyədə razılaşdırılmış standartlara uyğun olan qanunvericiliyi hazırlaması və milli səviyyədə həmin standartlara uyğun siyasəti müəyyənləşdirməsi üçün mühüm standartları müəyyən edir.

**Avropa Şurasının "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası"**

13. Gender bərabərliyi vasitələrinin təsirini və əyaniliyini artırmaq və üzv dövlətlərdə və Təşkilatın öz daxilində onların tətbiqinə dəstək vermək məqsədi ilə Avropa Şurası 2012-ci ildə "Gender bərabərliyinə dair çoxaspektli proqram"ının tətbiqinə başladı. Proqram Avropa Şurasının bütün strukturlarını, sektorlarını, hökumətlərarası strukturları, monitorinq mexanizmlərini və bəzi məsələlərə dair sazişlərin iştirakçılarını və xarici tərəfdaşları səfərbər edir və beləliklə fəaliyyətlərin daha böyük təsirə malik olması üçün iştirakçıların enerjisini və məqsədyönlü səylərini bir araya gətirir. Avropa Şurasının Gender Bərabərliyi Komissiyası (GBK) bu səylərdə mərkəzi yer tutur.

14. Çoxaspektli Proqramın ən çox nəzərə çarpan nəticəsi 2013-cü ilin noyabrında Nazirlər Komitəsi tərəfindən yekdilliklə qəbul edilmiş Avropa Şurasının "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası" ("Strategiya") oldu. Strategiya Avropa Şurasının güclü cəhətlərinə, spesifik xüsusiyyətlərinə və bu sahədə verə biləcəyi töhfələrə əsaslanmaqla tərtib edilib və gender bərabərliyi sahəsində Avropa Şurasının rolunu və fəaliyyətləri üçün hədəfləri və bazanı müəyyən edir. Strategiya gender bərabərliyinə hərtərəfli və inteqrasiyalı yanaşmanı təşviq edir, Avropa Şurasına üzv olan dövlətləri və Təşkilat daxilindəki orqanları və mexanizmləri gender bərabərliyi sahəsində standartların tətbiqində ortaya çıxan köhnə və yeni problemlərin öhdəsindən gəlmələri üçün bu sahədə siyasətə dair təlimatlarla və dəstəklə təmin edir.

15. "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası" beş prioritet sahəni müəyyən edir:

1) gender stereotipləri və seksizmlə mübarizə aparılması;
2) qadınlara qarşı zorakılığın qarşısının alınması və onunla mübarizə aparılması;
3) qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi;
4) siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması;
5) bütün siyasət və tədbirlərdə gender yanaşmasının nəzərə alınması.

16. Strategiyanın həyata keçirilməsi prosesində ortaya çıxan çatışmazlıqları və maneələri müəyyən etmək üçün Avropa Şurası standartların təşviqi, monitorinqi və qiymətləndirilməsi ilə, habelə həmin çatışmazlıqların aradan qaldırılması üçün fəaliyyətlərin, lazımi alətlərin və əməkdaşlıq proqramlarının inkişaf etdirilməsi ilə, müvafiq alətlərin tətbiqində üzv dövlətlərə dəstək göstərilməsi ilə məşğul oldu. "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası"nın digər mühüm elementi digər regional və beynəlxalq təşkilatlarla, eləcə də vətəndaş cəmiyyəti ilə strateji tərəfdaşlıq qurmaqdan və bu tərəfdaşlığı gücləndirməkdən ibarət idi ki, bunda da məqsəd səylərin birləşdirilməsini təmin etmək, fəaliyyətlərin təsirini gücləndirmək və səmərəliliyini, əhatəliliyini və əyaniliyini artırmaq idi.

[5] Bax: http://website-pace.net/fr/web/as-ega/main.

17. Strategiyanın tətbiqi ilə bağlı GBK tərəfindən Nazirlər Komitəsinə təqdim edilən illik hesabatlar gender bərabərliyi sahəsində Avropa Şurasının aparıcı rolunu və həm Avropa, həm də dünya səviyyəsində onun artan nüfuzunu təsdiq etdi. Gender bərabərliyi Nazirlər Komitəsinin ardıcıl olaraq dəyişən sədarəti üçün prioritet sahə olaraq qalır. Mütəmadi hesabatlar və monitorinq fəaliyyətləri həmçinin təsdiq etdi ki, Avropa Şurasının gender bərabərliyi strategiyasının beş məqsədinin hamısı ilə bağlı fəaliyyətlərdə üzv dövlətlər aktiv iştirak edir və GBK-nın təlimatları əsasında hazırlanan təşəbbüslərdən və alətlərdən milli fəaliyyətlərdə bəhrələnirlər. Üzv dövlətlərlə əməkdaşlıq olduqca önəmlidir və Strategiyanın tətbiqi Avropa Şurasının standartlarının innovativ təşəbbüslərlə və milli səviyyədə qazanılan təcrübələrlə dolğunlaşdırılmasına imkan yaradır.

**Avropa Şurasının "2018-2023-ci illər üçün yeni Gender Bərabərliyi Strategiyası"**

18. Yeni Strategiya hüquq və siyasət sahələrində gender bərabərliyi ilə bağlı Avropa Şurasının əldə etdiyi zəngin təcrübəyə, eləcə də birinci belə strategiya sənədi olan Avropa Şurasının "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası"nın nailiyyətlərinə əsaslanmaqla hazırlanıb. O, həmin təcrübə və nailiyyətlərin hazırkı iqtisadi şəraitlə və Avropa Şurası daxilindəki siyasi rıçaqlarla, o cümlədən Təşkilatın ümumi prioritetləri ilə əlaqəli şəkildə tətbiqinə imkan yaradır. Yeni Strategiya 2018-2023-cü illər üçün Avropa Şurasının gender bərabərliyinə dair hədəflərini və prioritetlərini özündə əks etdirir, iş metodlarını və əsas tərəfdaşları, habelə nəticələrin əyaniliyinin artırılması üçün tələb olunan tədbirləri müəyyənləşdirir.

19. Avropa Şurasına üzv dövlətlərin 2014-2017-ci illər Strategiyasının həyata keçirilməsində qarşılaşdığı çətinliklər qlobal və regional kontekstdə baş verən daha geniş miqyaslı proseslərlə, o cümlədən qadınların insan hüquqlarına qarşı mənfi reaksiyalarla, qeyri-bərabər səlahiyyət strukturları ilə, qadınlara qarşı davamlı zorakılıqlarla, qadın hüquqlarının müdafiəçilərinə qarşı təhdidlərlə, qadınların siyasi prosesdə və qərarların qəbulu prosesində məhdud iştirakı ilə, qərəzli gender yanaşmaları və gender stereotipləri ilə, seksizmlə və qadınlara qarşı ayrı-seçkiliklə, o cümlədən onlayn və offlayn rejimində və siyasi müzakirələrdə səslənən, seksizmdən qaynaqlanan nifrət dolu çıxışlarla, məşğulluq və maliyyə resurslarına bərabər çıxış imkanlarının olmaması ilə, kişilər və qadınlar arasında hüquq bərabərliyinin həyata keçirilməsi üçün sosial və iqtisadi infrastrukturun olmaması ilə (məsələn, uşaqlara qulluq müəssisələri, valideynlik məzuniyyəti üçün yetərli məbləğdə müavinət və valideynliklə bağlı digər ödənişlər və s.) əlaqədardır. Sonuncu, amma heç də az əhəmiyyətli olmayan məsələ büdcə sıxıntılarından və gender bərabərliyinə görə məsul olan orqanlara və bu sahə ilə məşğul olan qurumlara sərt qənaət tədbirlərinin tətbiq edilməsindən ibarətdir. Gender bərabərliyinə dair qanunların və siyasətin həyata keçirilməsi bu vəzifə üçün ayrılmış maliyyə və insan resursları ilə birbaşa əlaqədardır. Bu səbəbdən gender bərabərliyi üçün milli və yerli səviyyədə nəzərdə tutulan institusional mexanizmlərin gücləndirilməsi və bütün səviyyələrdə resursların mövcud olması vacibdir və buna görə də bu amil yerlərdə gender bərabərliyi sahəsində vəziyyətin yaxşılaşdırılmasında gələcək inkişafı müəyyənləşdirəcəkdir.

20. "Biz məqsədimizə çatırıqmı? İrəliləyişlərin qiymətləndirilməsi, ruhlandırıcı addımlar – Avropa Şurasının 2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası" mövzusunda konfrans[6] zamanı Strategiyanın həyata keçirilməsi dəyərləndirildi və Avropa Şurasının növbəti gender bərabərliyi strategiyasının hazırlanması üçün bir sıra tövsiyələr irəli sürüldü, o cümlədən irəliləyiş və nailiyyətlərin, eləcə də yeni yaranan problemlərin, məsələn, miqrant və qaçqın axınlarının nəzərə alınmasının zəruriliyi qeyd edildi.

---

[6] 30 iyun 2016-cı ildə Tallinndə (Estoniya) keçirilib, http://www.coe.int/en/web/genderequality/tallinn-conference/.

21. Xüsusən qadınlar və həm də kişilər çox zaman İnsan hüquqları haqqında Avropa Konvensiyasının 14-cü maddəsində sadalanan bir sıra səbəblərə görə ayrı-seçkiliyə məruz qalırlar və həmin səbəblərin siyahısı Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedent hüququ vasitəsilə daha da genişləndirilib. Ayrı-seçkiliyin bütün formaları və qurbanların kimliyi bütünlüklə nəzərə alınmalıdır ki, həm gender bərabərliyi siyasətinin, həm də "ümumi siyasətin" qadınlara və kişilərə, oğlanlara və qızlara tətbiqinin tam səmərəliliyi, onların müxtəlifliyi nəzərə alınmaqla, təmin edilmiş olsun. Yeni Strategiyada təsdiq edilir ki, bütün qadınların, o cümlədən müdafiəsiz qruplardan olan qadınların (məsələn, qaraçı qadınların, əlil qadınların, miqrant və qaçqın qadınların) gender bərabərliyi siyasətindən və müvafiq vasitələrin təmin etdiyi müdafiədən bəhrələnməsinin təmin edilməsi mühüm vəzifədir.[7] Bu məqsədlə yeni Strategiyada ayrı-seçkiliyin çoxşaxəli əsaslarına xüsusi diqqət yetirilir ki, bu da müzakirələrdə əsas diqqətin çoxtərkibli ayrı-seçkilikdən[8] ayrı-seçkiliyin müxtəlif qurbanlarını və növlərini özündə ehtiva edən çoxşaxəli ayrı-seçkiliyə[9] doğru yönəldiyini göstərir. Etnik mənsubiyyət, yaş, əlillik, seksual oriyentasiya və ya cinsi mənsubiyyətə əsaslanan çoxşaxəli ayrı-seçkilik konkret qadın qruplarına qeyri-mütənasib təsir göstərərək onların cəmiyyətin həyatından kənarlaşdırılmasına və digər hallara gətirib çıxarır. Buna görə də çoxşaxəlilik yeni Strategiyanın prioritet məqsədləri arasında çoxaspektli məsələ kimi qəbul edilir.

22. Bundan əlavə, cinsi zəmində ayrı-seçkilik struktur xarakterli və horizontal xarakter daşıyan amil olaraq bütün mədəniyyətlərə və cəmiyyətlərə hər səviyyələrdə nüfuz edir. Gender bərabərsizliyi hallarına insanın həyatı boyu "yeniləri əlavə olunur" və beləliklə gənclik illərində insanın məruz qaldığı müəyyən əlverişsiz durumlar onun bütün həyatı boyu üst-üstə yığılır və həyatda sonrakı çətinliklərə səbəb ola bilər. Buna görə də bu reallığı dərk etmək üçün gender bərabərliyi siyasətinə insanın bütün həyatı prizmasından yanaşmaq lazımdır.

23. Məşğulluq, əmək haqqı, yoxsulluq, pensiyalar, kişilər və qadınlar arasında ev təsərrüfatı işlərinin və ailə üzvlərinə qulluq vəzifələrinin qeyri-bərabər bölgüsü kimi məsələlərdə davam etməkdə olan çatışmazlıqları aradan qaldırmağın vacibliyi yeni Strategiyada qadınların iqtisadi müstəqilliyinə aparan əsas amil kimi qəbul edilir. Qadınların iqtisadi müstəqilliyi və imkanlarının genişləndirilməsi gender bərabərliyi üçün və bərabər imkanlara əsaslanan dayanıqlı cəmiyyətlər üçün zəruri şərtdir. Qadınların iqtisadi imkanlarının genişləndirilməsi, o cümlədən onların işləməsi, xidmətlərdən istifadə etməsi, mülkiyyətə və peşə bacarıqlarına malik olması iqtisadi resursların və imkanların onlar üçün əlçatanlığını artırır ki, nəticədə onların iqtisadi inkişafa və artıma öz töhfələrini vermək imkanları yüksəlmiş olur. Dayanıqlı siyasət və bu siyasətə sadiqlik qadınların iqtisadi imkanlarının artırılması və Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş hüquqları üçün önəmlidir.

24. Yeni Strategiyada həmçinin qadınlar və kişilər arasında bərabərliyin ictimai, şəxsi və ailə həyatında onların layiqli yaşayışı və hüquqları üçün doğurduğu nəticələrə toxunulur. Analıq və atalıq məzuniyyətinin sosial əhəmiyyətini və hər iki valideynin uşaqların tərbiyəsindəki rollarını və himayələrində olan yetkinlik yaşına çatmayan övladlarının himayədarı qismində rollarını

[7] Üzv dövlətlər milli səviyyədə müdafiəsiz durumda olan və durumları məqsədyönlü siyasətin və tədbirlərin tətbiqini tələb edən digər konkret qadın qruplarını da müəyyənləşdirə bilərlər.

[8] Müəyyən qadın qrupları cinsi mənsubiyyətlərinin digər amillərlə, məsələn, irqləri, dərilərinin rəngi, dilləri, dini mənsubiyyətləri, siyasi və ya digər baxışları, milli və ya sosial mənşələri, milli azlıq qrupuna aidiyyətləri, əmlak vəziyyətləri, doğum və ya digər statusları ilə kombinə olunmuş halda götürülməsi səbəbindən xüsusilə müdafiəsiz durumda ola bilərlər. Cins əlamətinə görə ayrı-seçkiliyə məruz qalmaqdan əlavə çox vaxt bu qadınlar eyni zamanda ayrı-seçkiliyin bir və ya bir neçə digər növlərinə də məruz qalırlar (Gender bərabərliyi standartları və mexanizmlərinə dair Avropa Şurasının Nazirlər Komitəsinin CM/Rec (2007)17 saylı tövsiyəsinin 59-cu bəndi).

[9] "Ayrı-seçkiliyin çoxtərkibliliyi ayrı-seçkiliyə məruz qalan insanların çoxaspektli qruplarının mövcud olduğunu və onların konkret situasiyasına, yaşantılarına və kimlikləri ilə bağlı məsələlərə reaksiya göstərilməsinin vacibliyini önə çəkir". Mənbə: "*Innovating at the Intersections. Equality bodies tackling Intersectional Discrimination*", Equinet, noyabr 2016-cı il.

nəzərə almaq həm qadınların, həm də kişilərin insan hüquqlarına tam və bərabər əsasda hörmət edilməsini təmin etmək üçün vacibdir. Ödənişsiz ev təsərrüfatı və ailə üzvlərinə qulluq işlərinin bərabər bölüşdürülməsi gender stereotiplərini dağıtmaq, qadınlarla kişilərin işində və həyatında balansı təmin etmək və real gender bərabərliyinə daha da yaxınlaşmaq üçün təşviq edilməlidir.

25. Həm ictimai, həm də şəxsi həyat sahələrində kişilərin rolu real gender bərabərliyinə doğru irəliləyişə nail olmaq üçün vacibdir. Gender bərabərliyi naminə dəyişikliklərin subyektləri qismində kişilərin və oğlanların iştirakçılığı və məsuliyyəti çox vacibdir. Qarşılaşdıqları stereotipli gözləntilərin təzyiqlərindən kişiləri və oğlanları azad etmək üçün kişi gender stereotipləri aradan qaldırılmalıdır. Gender stereotipləri geniş yayıldığına və zaman keçdikcə öz təsirini göstərdiyinə görə geniş çeşidli sosial sahələrdə – evdə, təhsil sistemində, iş yerində və daha geniş iqtisadiyyat sahələrində, ictimai yerlərdə, sosial mediada və sosial şəbəkələrdə, eləcə də şəxsi münasibətlərdə kişilərin və oğlanların sosiallaşması məsələsinin həllinə insanın bütün həyatı prizmasından yanaşmaq lazımdır. Həm qadınların insan hüquqlarının təşviq edilməsində aktiv tərəfdaş kimi, həm də gender bərabərliyi siyasətindən bəhrələnən tərəf kimi kişilərin prosesə qatılması tələb olunur.

26. Bütün səviyyələrdə və bütün sahələrdə qadınlar və kişilər arasında de *facto* bərabərliyin təmin edilməsi işinə ciddi sadiqlik və eyni zamanda qadınların imkanlarının genişləndirilməsi və seksizmin və gender stereotiplərinin aradan qaldırılması gələcək nəsillərə və bütövlükdə cəmiyyətə fayda gətirəcəkdir. Substantiv gender bərabərliyinə doğru irəliləyiş həm də kişilərin və qadınların rolunun dəyişməsini tələb edir və ev təsərrüfatı və ailə üzvlərinə qulluq işlərinin bölgüsü də buraya daxildir.

27. Yeni Strategiya Avropa Şurasının digər strategiyaları və fəaliyyət planları ilə, xüsusən uşaq hüquqları, internet idarəçiliyi, əlillərin hüquqları, qaraçı və köçərilərin inteqrasiyası və Avropada qaçqın və miqrant uşaqların hüquqlarının qorunması sahəsindəki strategiyaları və fəaliyyət planları ilə əlaqəli şəkildə həyata keçiriləcəkdir.

28. Strateji məqsədlər və onlara nail olmaq üçün istifadə edilən konkret tədbirlər və vasitələr arasındakı birbaşa əlaqəni göstərmək üçün yeni Strategiyaya cari, gələcək və təklif olunan fəaliyyətləri göstərən ikiillik cədvəl (Avropa Şurasının büdcə siklinə uyğun olaraq) əlavə ediləcəkdir.

**Avropa Şurası qlobal kontekstdə: BMT-nin 2030-cu il üçün "Dayanıqlı İnkişaf Gündəliyi"**

29. Avropa Şurasının hərtərəfli və çoxsaylı sənədlər toplusu və işi üzv dövlətlərin Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı inkişaf məqsədləri"nə (BMT DİM) nail olmağa yönələn səylərinə mühüm töhfə verir. Avropa Şurası həmçinin müvafiq beynəlxalq sənədlərdə, məsələn, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasında (CEDAW), Pekin Fəaliyyət Platformasında və BMT-nin 2030-cu il üçün "Dayanıqlı İnkişaf Gündəliyi"ndə nəzərdə tutulmuş məqsədlərə nail olunmasına yardım göstərir.

30. Avropa Şurası insan ləyaqətinə hörmətin təmin edilməsi sahəsində üç innovativ, unikal və hərtərəfli konvensiya qəbul edib ki, onların da hamısının DİM ilə əlaqəsi vardır:

- Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Avropa Şurasının Konvensiyası (İstanbul Konvensiyası);
- İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası;
- Uşaqların seksual istismardan və seksual zorakılıdan müdafiəsi haqqında Avropa Şurasının Konvensiyası (Lanzarot Konvensiyası)

31. Bu konvensiyalar qlobal əhatə dairəsinə malikdir. Onlar belə bir düşüncə ilə hazırlanmışdır ki, gender əsaslı zorakılıq ilə, insan alveri və uşaqların seksual istismarı ilə bağlı qlobal problemləri həll etməyə yönələn tədbirlər müəyyən bir coğrafi ərazi ilə məhdudlaşdırılmamalıdır. Onların müddəaları dünyanın bütün bölgələrində normativ bazada və siyasətdə dəyişiklikləri stimullaşdırıb və üzv dövlətlərin hamısı bu konvensiyaların iştirakçısı ola bilərlər. İştirakçı olmayan dövlətlər üçün isə onlar həm qlobal, həm də milli səviyyədə geniş əhatəli fəaliyyət planı təşkil edir. Onlar beynəlxalq əməkdaşlıq, beynəlxalq təcrübələrin icmalı və mübadiləsi üçün istinadedici baza kimi istifadə edilə və milli siyasətin və qanunvericiliyin hazırlanmasında unikal təlimatları təmin edən platforma təşkil edə bilərlər. Onların vasitəsilə Avropa Şurası və ona üzv olan dövlətlər "Dayanıqlı İnkişaf Məqsədləri"ndə sadalanan 5-ci məqsədin ("Gender bərabərliyinə nail olunması və bütün qadınların və qızların imkanlarının genişləndirilməsi") və 16-cı məqsədin ("Dayanıqlı inkişaf üçün sülhpərvər və açıq cəmiyyətlərin qurulmasının təşviq edilməsi, ədalət mühakiməsinə çıxış imkanının hamı üçün təmin edilməsi və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştirakçılığa əsaslanan təsisatların yaradılması") həyata keçirilməsinə dəstək göstərə və töhfə verə bilərlər.

32. 5-ci məqsədə (gender bərabərliyi) daxil olan doqquz hədəfə nail olunmasının qiymətləndirilməsi üçün BMT səviyyəsində razılaşdırılmış 14 göstərici gender bərabərliyinə nail olmaq üçün Avropa Şurasının apardığı işin prioritet sahələrini əhatə edir. Avropa Şurasının "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası"nda və yeni Strategiyasında 5-ci məqsədin hədəflərinin çoxuna, o cümlədən insan ləyaqətinə hörmət edilməsinə və gender bərabərsizliyi ilə mübarizəyə; cəmiyyətin həyatında qadınların tam iştirakının təşviqinə; işlərin ədalətlə həll edildiyi ədalət mühakiməsi sistemlərinə hamının çıxışının təmin edilməsinin və tərəfdaş qismində birgə çalışmağın zəruriliyinə toxunulur.

33. 16-cı məqsəd də (sülhün, ədalətin və güclü təsisatların olması) Avropa Şurasının gender bərabərliyi sahəsindəki işi üçün aktualdır, belə ki, həmin məqsəd "ədalət mühakiməsinə çıxış imkanının hamı üçün" təmin edilməsini nəzərdə tutur. Avropa Şurası bu məqsədi qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanına malik olmalarını təmin etməyə yönələn işi vasitəsilə gerçəkləşdirir. Bundan başqa, 16-cı məqsəd fiziki, psixoloji və seksual zorakılıq və onlarla əlaqədar ölüm hallarının azaldılmasına, qızlara və oğlanlara qarşı sui-istifadə, istismar, insan alveri və hər cür zorakılıq formalarına son qoyulmasına yönələn hədəfləri özündə ehtiva edir ki, bunlar da Avropa Şurası konvensiyalarının əhatə etdiyi sahələrdir və 47 üzv dövlətin və Aralıq dənizinin cənubundakı ölkələrin fəaliyyətləri və əməkdaşlığı vasitəsilə həyata keçirilir.

34. Nəhayət, "Dayanıqlı İnkişaf Məqsədləri"nə, xüsusən 1,[10] 3,[11] 4[12] və 8-ci[13] məqsədlərə daxil olan, gender bərabərliyi ilə əlaqədar olan digər hədəflər də yeni Strategiya üçün aktualdır.

## I. HƏDƏF VƏ STRATEJİ MƏQSƏDLƏR

35. Yeni Strategiyanın ümumi hədəfi Gender Bərabərliyi Komissiyasının (GBK) rəhbərliyi altında mövcud vasitələrin tətbiqini dəstəkləməklə və gender bərabərliyi sahəsində Avropa Şurasının qazandığı təcrübəni möhkəmləndirməklə Avropa Şurasının üzv dövlətlərində gender bərabərliyinin səmərəli şəkildə həyata keçirilməsinə nail olmaqdan və qadın və kişilərin imkanlarını genişləndirməkdən ibarətdir. 2018-2023-cü illər dövrü üçün diqqət altı strateji sahəyə yönəldiləcək:

---

[10] Hər yerdə yoxsulluğun bütün formalarının ləğv edilməsi.

[11] İstənilən yaşda olan bütün insanlar üçün sağlam həyat tərzinin təmin edilməsi və rifahlarına şərait yaradılması.

[12] Hamını əhatə edən ədalətli və keyfiyyətli təhsilin təmin edilməsi və hamı üçün bütün həyatları boyu təhsil imkanlarının təşviq edilməsi.

[13] Davamlı, hamını əhatə edən və dayanıqlı iqtisadi inkişafa və hamının tam və məhsuldar məşğulluqla və layiqli işlə təmin edilməsinə şərait yaradılması.

1) Gender stereotiplərinin və seksizmin qarşısının alınması və onlarla mübarizə aparılması.
2) Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə aparılması.
3) Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi.
4) Siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması;
5) Miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların hüquqlarının qorunması.
6) Bütün siyasət və tədbirlərdə gender bərabərliyinin nəzərə alınmasına nail olmaq.

36. Bu prioritet sahələrdə fəaliyyətlər Avropa Şurası və üzv dövlətlər tərəfindən həyata keçirilən çoxsaylı işlərə əsaslanır və həmin işlər daha da inkişaf etdiriləcək ki, bu da digər regional və beynəlxalq təşkilatların həyata keçirdikləri tədbirlərə əlavə töhfə verəcək. Bundan əlavə, həmin fəaliyyətlər yeni Strategiyanın əhatə etdiyi dövrdə hiss olunan nəticələrə nail olmaq üçün gender bərabərliyi sahəsində Avropa Şurasının və üzv dövlətlərin fəaliyyətlərinin davamlılığını təmin edəcəkdir.

37. Yeni Strategiyadan bəhrələnənlər Avropa Şurasına üzv olan 47 dövlətdə yaşayan qadınlar və kişilər, qızlar və oğlanlar və bütövlükdə cəmiyyət olacaqdır. Üzv dövlətlərin hökumətləri yeni Strategiyanın milli və yerli səviyyələrdə həyata keçirilməsini gender bərabərliyi məsələləri ilə məşğul olan təsisatlarla, bərabərlik məsələlərinə görə məsul orqanlarla və vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlıq şəraitində həyata keçirəcəklər.

**1-ci strateji məqsəd: Gender stereotiplərinin və seksizmin qarşısının alınması və onlarla mübarizə aparılması**

38. Gender stereotipləri öncədən şüurlarda kök salan, qadınlara və kişilərə cinsi mənsubiyyətləri ilə müəyyən edilən və məhdudlaşan xüsusiyyətlər və rollar ayıran sosial və mədəni modellər və ya ideyalardır. Gender stereotipləri real gender bərabərliyinə nail olmaq qarşısında ciddi maneə təşkil edir və cinsi ayrı-seçkiliyə zəmin yaradır. Belə stereotiplər qızların və oğlanların, qadınların və kişilərin təbii istedadlarının və qabiliyyətlərinin inkişafını, təhsil və peşə seçimlərini və təcrübələrini, eləcə də bütövlükdə həyatdakı imkanlarını məhdudlaşdıra bilər.

39. Gender stereotipləri dərin kök salmış yanaşmaların, dəyərlərin, normaların və köhnəfikirliliyin həm nəticəsi, həm də səbəbidir. Onlar kişilərin qadınlar üzərində tarixən bərqərar olmuş hökmranlıq münasibətlərinə haqq qazandırmaq və həmin münasibətləri, habelə gender bərabərliyinin inkişafına əngəl törədən seksizm yanaşmalarını qoruyub saxlamaq üçün istifadə edilir.

40. İnternetdə pornoqrafiya da daxil olmaqla zorakı və alçaldıcı xarakterli materialların yayımlanması, seksual zorakılığın, o cümlədən zorlamanın normal hal kimi göstərilməsi qadınların itaətkar rolu barədə fikirləri möhkəmləndirir və qadınlarla ailənin və cəmiyyətin ikinci dərəcəli üzvü kimi rəftar edilməsinə şərait yaradır. Onlar qadınlara qarşı zorakılığa, qadınları, xüsusən feministləri hədəfə alan, seksizmdən qaynaqlanan nifrət dolu çıxışlara zəmin yaradır və gender stereotiplərinin və seksizmin qorunub saxlanmasına və möhkəmlənməsinə şərait yaradır.

41. Gender stereotipləri və patriarxat münasibətləri kişilərə və oğlanlara da mənfi təsir göstərir. Kişilər və oğlanlar barəsində stereotiplər də dərin kök salmış yanaşmaların, dəyərlərin, normaların və köhnəfikirliliyin nəticəsidir. Kişiliyə hegemonluğun xas olması barədə təsəvvürlər gender stereotiplərinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə şərait yaradan amildir ki, bu da öz növbəsində kişilik barədə hökmran olan təsəvvürlərdən kənara çıxan kişilərə və oğlanlara qarşı nifrət dolu seksizm xarakterli çıxışlara və qərəzli fikirlərə şərait yaradır. Cəmiyyətin təsəvvürləri və mediadakı nümunələr də gender stereotiplərinə zəmin yarada bilər.

Buraya qadınların və kişilərin zahirən necə görünməli, necə davranmalı, hansı peşələrin arxasınca getməli və ev təsərrüfatında hansı vəzifələri yerinə yetirməli olduqları barədə təsəvvürlər daxildir.

42. Struktur bərabərsizlikləri və qadınlara və kişilərə, qızlara və oğlanlara təsirini göstərən davamlı gender stereotipləri təhsil və uşaq bağçaları sistemində mövcud olmaqda davam edir və bütün əmək bazarına nüfuz edir. Əmək bazarında horizontal təcridetmə açıq-aydın görünür: müəyyən peşələrdə və iqtisadi fəaliyyətin müəyyən sahələrində (məsələn, elm və texnologiyalar sahəsində, ağır sənayedə, tikintidə, orduda) təmsil olunmada kişilər böyük üstünlüyə malikdirlər. Eynilə, digər fəaliyyət sahələrində qadın işçi qüvvəsi üstünlük təşkil edir (çox zaman bunlar az ödənişli işlər olur, məsələn, dayəlik xidmətləri, təhsil sahəsi, katiblik və ya ofis işi, tibb bacısı xidmətləri və ya insan resursları (kadrlar) bölmələri). Əksər hallarda qadınların ənənəvi qulluqçu rolunu özündə əks etdirən peşə seçimi imkanlarına stimullaşdırıcı addımlar, pozitiv siyasət və qanunvericilik tədbirləri, məsələn, atalıq məzuniyyəti öz təsirini göstərə bilər ki, bununla da "ənənəvi" qadın peşələri sayılan peşələrdə çalışan kişilər digər kişilər üçün nümunə rolunu oynaya bilərlər. Əmək bazarında vertikal təcridetmə də açıq-aşkardır. Eyni sektorda, hətta qadınlar üstünlük təşkil etsələr belə, adətən əməkhaqqı və iyerarxiya baxımından daha yüksək vəzifələri kişilər tutur, iyerarxiya və əməkhaqqı baxımından daha aşağı işləri isə qadınlar yerinə yetirirlər (məsələn, təhsil və pərakəndə satış sahələrində). Bu hal əsas etibarı ilə evdarlıq və qulluqçuluq vəzifələrinin qeydi-mütənasib dərəcədə çox hissəsinin qadınların üzərinə düşməsinin, təhsil və peşə seçimlərində gender qərəzliliyinin və stereotiplərinin nəticəsidir ki, bu da həm kişilərə, həm də qadınlara öz təsirini göstərir.

43. Gender stereotipləri qadınların iqtisadi və sosial həyatdan kənarlaşdırılmasını daimiləşdirir. Onlar ödənişsiz ev təsərrüfatı və ailə üzvlərinə qulluq vəzifələrinin və az ödənişli və ya qeyri-rəsmi işlərin qeyri-mütənasib bölgüsünün təsirinə məruz qalırlar. Bundan başqa, Avropada qadınların təhsil səviyyəsinin orta hesabla daha yüksək olması avtomatik olaraq bərabər qaydada əməkhaqqı və pensiyaların ödənilməsinə, onların yüksək ixtisaslı işlərdə çalışmasına və rəhbər vəzifələri tutmaqda bərabər imkanlara malik olmasına gətirib çıxarmır. Bəzi qadın qrupları (xüsusən təhsil səviyyəsi aşağı olan qadınlar, tənha analar, miqrant və qaraçı qadınlar, etnik azlıqlardan olan qadınlar, əlilliyi olan qadınlar) xüsusi problemlərlə üzləşir, xüsusən əmək bazarına çıxış imkanı baxımından böyük çətinliklərlə, habelə məşğulluq imkanlarının yüksək dərəcədə qeyri-sabitliyi ilə və bununla əlaqədar yoxsulluq riskləri ilə, həmçinin sosial təcrid halları ilə qarşılaşırlar. Qadınların iqtisadi imkanlarının genişləndirilməsi bərabər imkanları dəstəkləyən tədbirlərin görülməsini, eyni dəyərə malik əməyə görə eyni əməkhaqqı ödənilməsini, qadınların işləməsinə münasibətdə ayrı-seçkilik xarakterli qanunvericiliyin və iqtisadi maneələrin aradan qaldırılmasını, ödənişli analıq və atalıq məzuniyyətlərinin olmasını, uşağa qulluğa görə analara və atalara valideynlik məzuniyyətinin verilməsini, uşaqlara qulluq müəssisələrində keyfiyyətli və münasib qiymətli xidmətlərə və digər sosial xidmətlərə çıxış imkanının olmasını, gender stereotiplərinin təsiri altında formalaşan, məşğulluq sahəsində kişilərin hakim mövqeyinə əsaslanan ənənələrin, yanaşmaların və praktikanın dəyişməsini tələb edir.

44. Kütləvi informasiya vasitələri və sosial media həyatımızda mühüm rol oynayır və bu fakt məlumatları paylaşmaq və müxtəlif məsələlər barədə məlumatlılığımızı genişləndirmək üçün onlardan istifadə etdiyimiz hallara xüsusilə aiddir. Bununla belə, sübutlar göstərir ki, xüsusən sosial mediadan istifadə edilərkən sui-istifadəyə yol verilir və çox zaman qadınlar və qızlar internetdə zorakılıq hədələri ilə və seksual təhdidlərə üzləşirlər. Seksizmdən qaynaqlanan nifrət dolu çıxışların daşıyıcıları qismində fəaliyyət göstərən xüsusi platformalar sosial medianı və ya videooyunları da özündə ehtiva edir. Çox vaxt ifadə azadlığından sui-istifadə edərək qəbuledilməz və təhqiramiz davranışa onunla haqq qazandırırlar. Qadınlara qarşı zorakılığın digər formalarında olduğu kimi, seksizmdən qaynaqlanan nifrət dolu çıxışlar barəsində də

yetərincə məlumat verilmir, amma onların qadınlara, xüsusən qızlara və gənc qadınlara istər emosional, istərsə də psixoloji və (və) ya fiziki təsirləri sarsıdıcı ola bilər. Eyni sözlər seksizm hallarına da aiddir.

45. Avropa Şurasının bu sahədəki fəaliyyətləri aşağıdakıları həyata keçirməyə yönələcək:

- stereotip gender rollarına əsaslanan köhnəfikirliliyin, adətlərin, ənənələrin aradan qaldırılmasına yönələn Avropa Şurası sənədlərinin və tövsiyələrinin tətbiqini təşviq etmək; müvafiq sənədlərin, o cümlədən İstanbul Konvensiyasının yerinə yetirilməsində üzv dövlətlərə yardımçı olan vasitələr hazırlamaq;
- "Təhsil sahəsində gender stereotipləri ilə mübarizəyə dair" Helsinki Konfransının (2014) tövsiyələrinin yerinə yetirilməsini təşviq etmək;
- "Media və qadın obrazına dair" Amsterdam Konfransının (2013) tövsiyələrinin yerinə yetirilməsini təşviq etmək;
- təhsil sistemində, əmək bazarında, ailə həyatında, məzuniyyət sxemlərində və qadınların və kişilərin az təmsil olunduğu bütün sahələrdə qızlar və oğlanlar, qadınlar və kişilər üçün formalaşmış gender stereotiplərini aradan qaldırmaq üçün müsbət təcrübələri (ev təsərrüfatı və ailə üzvlərinə qulluq vəzifələrinin bərabər bölgüsü də daxil olmaqla) müəyyənləşdirmək, toplamaq və yaymaq;
- seksizm, gender stereotipləri və cins əlamətinə görə ayrı-seçkilik halları barədə məlumatların toplanmasını və tədqiqini dəstəkləmək;
- gender münasibətlərinə mənfi təsir göstərdiyini nəzərə alaraq zorakı və alçaldıcı internet pornoqrafiyasının, habelə zərərli seksual ənənələrin və cinsi münasibətlərdə məcburiyyətin qarşısını almaq;
- mövcud sənədlərin tələblərinin üzv dövlətlər tərəfindən yerinə yetirilməsini yoxlamaq;
- müvafiq sektorlarla və təşkilatlarla əməkdaşlıq şəraitində bir və ya bir neçə xüsusi qadın qruplarına (məsələn, qaraçı qadınlara, əlilliyi olan qadınlara, miqrant və qaçqın qadınlara) təsir göstərən gender stereotiplərini aradan qaldırmağa çalışmaq;
- kişiləri və oğlanları konkret sektorlara, məsələn, təhsil, media sektoruna və özəl sektora cəlb etməklə bu sektorlarda qüvvədə olan və kişilərə və oğlanlara təsir göstərən stereotipləri dağıtmaq;
- Avropa Şurasının digər müvafiq sektorları ilə əməkdaşlıq şəraitində seksizm yanaşmasının bir forması olan nifrət dolu seksizm çıxışlarının qarşısının alınmasını və təsirlərinin müşahidəsini davam etdirmək;
- seksizmin qarşısını almaq və onunla mübarizə aparmaq məqsədini daşıyan, özəl və ictimai məkanlarda qadınlara və kişilərə təsir göstərən yeni seksizm formalarını əhatə edən və seksizm ifadələrini (Dildən seksizm ifadələrinin çıxarılmasına dair Nazirlər Komitəsinin R (90) 4 sayı tövsiyəsi), seksizmdən qaynaqlanan nifrət dolu çıxışları, mediada və reklamlarda seksizmi aradan qaldırmağa yönələn tövsiyə layihəsini, o cümlədən onlayn və offlayn rejimində seksizmin qarşısını almağa və onunla mübarizə aparmağa yönələn təlimatları hazırlamaq;
- İş və ailə həyatının uzlaşdırılmasına dair Nazirlər Komitəsinin R (96) 51 saylı tövsiyəsinin tətbiqini yoxlamaq və yenilənməsi məsələsini nəzərdən keçirmək;
- qadın və kişilər üçün bərabər iqtisadi müstəqilliyin təşviqinə yönələn tədbirləri dəstəkləmək və qadınların əmək bazarında iştirakı qarşısındakı maneələri aradan qaldırmaq; daha çox sayda kişiləri ailədə qulluq vəzifələrini üzərlərinə götürməyə həvəsləndirmək və ailənin maraqlarını nəzərə alan dəyişkən iş vaxtı rejimləri və digər tədbirlər müəyyənləşdirmək.

**2-ci strateji məqsəd: Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə aparılması**

46. Qadınlara qarşı zorakılıq və məişət zorakılığı Avropa Şurasının bütün üzv dövlətlərində geniş yayılmış hal olaraq qalır və qadınlar, cəmiyyətlər və iqtisadiyyatlar üçün dağıdıcı nəticələrə səbəb olur. Avropa Şurasının Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Konvensiyası (İstanbul Konvensiyası) qadınların insan hüquqlarının bu ciddi pozuntusunun aradan qaldırılması üçün hamı tərəfindən ən əhatəli beynəlxalq müqavilə kimi tanınır. Həmçinin İnsan hüquqları haqqında Avropa Konvensiyasında və onunla əlaqədar presedent hüququnda, Avropa Şurasının Uşaqların seksual istismardan və seksual zorakılıdan müdafiəsi haqqında Konvensiyasında (Lanzarot Konvensiyası) və Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyasında mühüm təminatlar nəzərdə tutulur.

47. İstanbul Konvensiyası bir çox üzv dövlətlərdə qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınmasına və onlarla mübarizə aparılmasına yönələn qanunvericilikdə və strategiyaların hazırlanmasında müsbət dəyişikliklərə gətirib çıxardı. Bununla belə, qadınlara və qızlara qarşı zorakılığın aradan qaldırılmasına yönələn siyasət və tədbirlərin hazırlanmasında bir sıra ciddi problemlər qalmaqdadır, o cümlədən zorakılıqların bütün qurbanlarına məqsədyönlü yardım xidmətlərinin təmin edilməsi üçün mövcud resurslar məhduddur.[14] Bundan əlavə, müdafiəsiz durumda olan və cəmiyyətin həyatından kənarlaşdırılan qadın qruplarının, məsələn, miqrant, qaçqın və sığınacaq axtaran qadınların, narkotik istifadəçiləri olan qadınların, seksual oriyentasiyası və cinsi identikliyi fərqli olan qadınların, qaraçı qadınların[15] qarşılaşdıqları zorakılıqların aradan qaldırılması məqsədyönlü siyasət və fəaliyyətlər tələb edir.

48. Çox zaman zorakılıq psixi və fiziki sağlamlıq üçün qısa və uzunmüddətli zərərli nəticələrə səbəb olur və bəzən bu nəticələr sonrakı nəsillərdə də davam edir. İstanbul Konvensiyasında "məişət zorakılığına" belə anlayış verilir: zorakılıq törədənin qurbanla eyni evdə yaşayıb-yaşamamasından asılı olmayaraq ailə daxilində və ya məişətdə baş verən, keçmiş və ya hazırkı ər-arvad və ya tərəf-müqabillər arasında mövcud olan bütün fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıqlar. Məişət zorakılığı qadınlara qeyri-mütənasib təsir göstərir və həmçinin digər qurbanlara da öz təsirini göstərir, buna görə də İstanbul Konvensiyası iştirakçı tərəfləri bu Konvensiyanın müddəalarını qadınlar və qızlar, kişilər və oğlanlar və ahıllar da daxil olmaqla məişət zorakılığının bütün qurbanlarına tətbiq etməyə sövq edir.

49. Qızlara və oğlanlara qarşı zorakılıq onların hüquqlarının pozuntusunu təşkil edir, onların sosial inkişafını təhlükə altına alır və digər hüquqlarından istifadə etmələrinə təsir göstərir. Buna görə də uşaqlara qarşı zorakılığa son qoyulması hüquqi, etik və iqtisadi tələbdir. Zorakılıq riski altında olan uşaqların gender xarakterli təhlükəyə məruz qalması və müdafiəsiz durumda olması dərk edilməli və lazımi tədbirlər görülməlidir.[16]

50. İctimai yerlərdə qadınlara qarşı zorakılıq və seksual təzyiq İstanbul Konvensiyasında ciddi şəkildə pislənilir. İnsanların kütləvi toplaşdığı yerlərdə zorakılıq qadınlara qarşı zorakılığın digər bir aspektidir və geniş yayılmış problemdir. İctimai yerlərdə, eləcə də ictimai nəqliyyatda qorxu və təhlükə hissi qadınların gündəlik həyatına ciddi təsir göstərir. Çox vaxt qadınlar insidentin adi hal hesab ediləcəyindən qorxduqlarına görə şikayət ərizəsi verməyə cəsarət etmirlər. İctimai yerdə qadınlara qarşı seksual zorakılığa və təzyiqə göz yumularaq normal baxılması qadınların azadlığını məhdudlaşdırır və təcavüzkarların cəzasızlığının davam etməsinə şərait yaradır. Buna görə də ictimai yerdə qadınlara edilən hücumlar barəsində məlumat verilməlidir və belə hallar hərtərəfli reaksiya göstərilməsini tələb edir.

---

[14] Bax: "Avropa Şurasının üzv dövlətlərində Qadınların zorakılıqdan müdafiə edilməsi haqqında Rec(2002)5 saylı tövsiyənin icrasının monitorinqinin 4-cü raundunun nəticələrinə dair analitik araşdırma" (mart 2014-cü il).

[15] Milli səviyyədə üzv dövlətlər məqsədyönlü siyasət və fəaliyyətlər tələb edən müdafiəsiz və xüsusi vəziyyətdə olan digər qadın qruplarını da müəyyən edə bilərlər.

[16] Avropa Şurasının uşaq hüquqları ilə bağlı strategiyası (2016-2021).

51. Avropa Şurasının bu sahədəki fəaliyyətləri aşağıdakıları həyata keçirməyə yönələcək:

- Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında BMT Konvensiyası (CEDAW) da daxil olmaqla müvafiq beynəlxalq sənədlərin müddəalarının həyata keçirilməsində üzv dövlətlərə dəstək göstərmək və bu zaman Qadınlara qarşı gender əsaslı zorakılığa dair 35 saylı ümumi tövsiyəni, 19 saylı ümumi tövsiyəni, habelə "Dayanıqlı inkişaf məqsədləri"ndə yer alan 5-ci və 16-cı məqsədləri nəzərə almaq;
- İstanbul Konvensiyasını, İnsan alverinə qarşı Konvensiyanı və Lanzarot Konvensiyasını imzalamağa, ratifikasiya etməyə və həyata keçirməyə hazırlaşan və bununla bağlı yardım üçün müraciət edən üzv dövlətlərə texniki və hüquqi dəstək də daxil olmaqla yardım göstərmək;
- qeyri-dövlət subyektlərini İstanbul Konvensiyasının, İnsan alverinə qarşı Konvensiyanın və Lanzarot Konvensiyasının həyata keçirilməsinə töhfə verməyə həvəsləndirmək üçün bu konvensiyalar barədə onların məlumatlandırılmasını təşviq edən, qadınlara qarşı zorakılıq ilə cəmiyyətdə qadınlarla kişilər arasında tarixən formalaşmış qeyri-bərabər səlahiyyət münasibətləri arasında əlaqəni önə çəkən vasitələr hazırlamaq;
- İstanbul Konvensiyasına uyğun olaraq aşağıdakı məqsədləri daşıyan təbirlər görmək:
  - ictimai yerdə qadınlara qarşı seksual zorakılıq və təzyiq hallarının qarşısını almaq;
  - zorakılığın bütün formalarının aradan qaldırılmasına yönələn tədbirlər görülməsində üzv dövlətlərə dəstək vermək;
  - qoruyucu tədbir olaraq məişət zorakılığı qurbanlarının sığınacaq üçün müraciət etməsinə və sığınacaqla təmin edilməsinə imkan yaratmaq;
  - qadınlara qarşı zorakılıq və məişət zorakılığı halları barədə məlumatların toplanması fəaliyyətinin inkişaf etdirilməsinə dəstək göstərmək;
  - qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısını almaq və onlarla mübarizə aparmaq üçün milli səviyyədə koordinasiya qurumlarının yaradılmasını və inkişafını dəstəkləmək və milli strategiyaların hazırlanmasını təşviq etmək və dəstəkləmək;
  - ahıl qadınlara və kişilərə qarşı zorakılıq əleyhinə tədbirlər görmək;
  - kişilərə və oğlanlara qarşı məişət zorakılığının qarşısını almağın və onunla mübarizə aparmağın zəruriliyini vurğulayan vasitələr hazırlamaq;
  - gender əsaslı zorakılığı törədən insanlar kimi kişilərin roluna toxunmaq və qadınlara və qızlara qarşı zorakılığın qarşısının alınmasında kişilərin roluna dair informasiya vasitələri hazırlamaq;
- Avropa Şurasının müvafiq orqanları və qurumları ilə əməkdaşlıq və informasiya mübadiləsi vasitəsilə müdafiəsiz durumda olan müəyyən qadın qruplarının (məsələn, yaşlı qadınlar, seksual oriyentasiyası və cinsi identikliyi fərqli olan qadınlar, cəmiyyətin həyatından kənarlaşdırılmış qadınlar, miqrant qadınlar, əlil qadınlar, gənc qadınlar və qızlar, evsiz qadınlar, narkotik istifadəçisi olan qadınlar və ya insan alverinin qurbanları) qarşılaşdıqları xüsusi zorakılıq formaları barədə məlumatlar toplamaq və bilgilər əldə etmək;
- qadınlara qarşı əlavə zorakılıq formalarının, məsələn, siyasi zorakılığın və sosial zorakılığın qarşısının alınmasına və onlarla mübarizəyə yönələn fəaliyyətləri inkişaf etdirmək;
- qeyri-üzv dövlətlər və digər regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq kontekstində İstanbul Konvensiyasını, İnsan alverinə qarşı Konvensiyanı və Lanzarot Konvensiyasını Avropa qitəsi xaricində təşviq etmək, mövcud biliklərin və müsbət təcrübələrin mübadiləsini aparmaq.

**3-cü strateji məqsəd: Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi**

52. Ədalət mühakiməsinə çıxış imkanı insan hüququdur və qanunun aliliyinin və effektiv demokratiyanın inkişafının ayrılmaz tərkib elementidir. İnsan hüquqlarına hörmət və onların müdafiəsi yalnız səmərəli hüquqi müdafiə vasitələri (o cümlədən ədalətli məhkəmə araşdırması hüququ), habelə adekvat reparasiya və (və ya) kompensasiya tədbirləri mövcud olduqda təmin edilə bilər. Ədalət mühakiməsinə çıxış əldə etmək hər kəs üçün çətin ola bilər, qadınlar üçün isə bu, cəmiyyətdəki və ədalət mühakiməsi sistemindəki gender bərabərsizliyi səbəbindən daha çətindir. Qadınlarla kişilər arasında davamlı iqtisadi və sosial bərabərsizliklər, gender qərəzliliyi və gender stereotipləri qadınların və kişilərin ədalət mühakiməsinə çıxış imkanlarının qeyri-bərabər olması ilə nəticələnir. Sübutlar həmçinin məhkəmə sistemində gözəgörünməz maneənin mövcud olduğunu göstərir.[17]

53. Ədalət mühakiməsinə bərabər çıxış imkanı səmərəli hüquqi müdafiə vasitəsi ilə təmin edilmək hüququnu, ədalətli məhkəmə araşdırması hüququnu, məhkəmələrə bərabər əsasda müraciət etmək imkanına malik olmaq hüququnu, hüquqi yardım almaq və vəkillə təmsil olunmaq hüququnu nəzərdə tutur. Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanına malik olmasının qarşısını alan çoxsaylı maneələr var ki, bunlar da qadağalardan, köhnəfikirlilikdən, gender stereotiplərindən, adətlərdən, yoxsulluqdan, məlumatsızlıqdan, qanunvericilikdəki boşluqlardan və qanunvericiliyin tətbiqindəki çatışmazlıqlardan və bəzən hətta qanunların özlərindən ibarətdir. Bu maneələrin təsirinə xüsusən müəyyən qadın qrupları, konkret olaraq gender əsaslı zorakılıq qurbanları, miqrant, qaçqın və sığınacaq axtaran qadınlar, etnik azlıqlardan olan qadınlar, qaraçı qadınlar, əlil qadınlar və ahıl qadınlar məruz qalırlar.

54. Bir çox ölkələrdə mülki hüquq və ailə hüququ sahələrində hələ də davam etməkdə olan ayrı-seçkiliyə əsaslanan yanaşmalar və qadınların qulluqçu, kişilərin isə dolandırıcı kimi stereotip rolları ilə yanaşı, mədəni maneələr, qorxu və utanma da qadınların ədalət mühakiməsinə çıxış imkanına təsir göstərir. Bu maneələr xüsusən gender əsaslı zorakılıq işləri üzrə istintaq və məhkəmə araşdırmalarında davam edə bilər və bu işlərin səmərəliliyinin olduqca aşağı düşməsinə və hətta bu cür zorakılıqlar barədə məlumat vermə hallarının azalmasına gətirib çıxara bilər. Onlar çoxtərkibli və çoxşaxəli ayrı-seçkilik formalarına məruz qalan qadınlara xüsusilə ciddi təsir göstərə bilər.

55. Birlikdə götürüldükdə bütün bu maneələr qadınları ədalət mühakiməsindən xaric edən "əngəllər toplusunun" tərkib hissələridir. Qadınlar və kişilər arasında əsl bərabərliyin təmin edilməsində ədalət mühakiməsinə bərabər çıxış imkanı fundamental əhəmiyyət daşıdığına görə gender balansındakı bu pozulmanın aradan qaldırılması vacibdir.

56. Avropa Şurasının bu sahədəki fəaliyyətləri aşağıdakıları həyata keçirməyə yönələcək:

- Avropa Şurasının sənədlərinin və digər müvafiq sənədlərin müddəalarının, o cümlədən DİM-də yer alan 16-cı məqsədin həyata keçirilməsində üzv dövlətlərə dəstək vermək və bu zaman Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin qadınların ədalət mühakiməsinə çıxış imkanı haqqında 33 saylı ümumi tövsiyəsini (2015) nəzərə almaq;
- "Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsinə doğru" mövzusunda Bern Konfransının (2016) tövsiyələrinin həyata keçirilməsini təşviq etmək və dəstəkləmək;

[17] Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası, "Avropa məhkəmə sistemləri – Ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti", Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (*CEPEJ*) araşdırmaları № 23, 2016-cı il nəşri (2014-cü ilin məlumatları).

- Qadınların ədalət mühakiməsinə çıxışı qarşısındakı maneələrin azaldılmasına və ədalət mühakiməsinə çıxışının asanlaşdırılmasına yönələn üzv dövlətlərin müsbət təcrübələrini müəyyənləşdirmək, toplamaq və yaymaq;
- Qadınların ədalət mühakiməsinə çıxışı, o cümlədən məhkəmə hakimiyyətində iştirakı sahəsində məlumat boşluqlarını və çatışmazlıqlarını aradan qaldırmaq üçün bu sahədə cins əlaməti üzrə bölünmüş məlumatların tədqiq edilməsini və standartlaşdırılmış qaydada toplanmasını təşviq etmək;
- Avropa Şurasının sənədləri və beynəlxalq hüquq əsasında və digər regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində milli səviyyədə tədqiqat, monitorinq, təlim, maarifləndirmə, potensialın artırılması və müsbət təcrübələrin təşviqi vasitəsilə, 2016-2021-ci illər üçün Avropa Şurasının Məhkəmələrin müstəqilliyinə və qərəzsizliyinə dair fəaliyyət planına (2.4-cü fəaliyyət) uyğun olaraq, məhkəmə qərarlarının qəbul edilməsi sahəsində gender stereotiplərinin zərərli təsirinin aradan qaldırılmasını davam etdirmək;
- CEDAW və İstanbul Konvensiyası da daxil olmaqla beynəlxalq konvensiyalar və digər hüquqi sənədlər kontekstində təşkil edilən və ədliyyə və hüquq mühafizə orqanlarının əməkdaşlarının tələbatlarına uyğunlaşdırılan gender bərabərliyi məsələlərinə və qadınların insan hüquqlarına dair təlim vasitələrini və materiallarını hazırlamaq və yaymaq;
- məhkəmə qərarlarının və onlara riayət edilməsinin monitorinqini aparmaq, habelə qadınların ədalət mühakiməsinə çıxış imkanları, o cümlədən məhkəmə stereotipləri və gender əsaslı zorakılığa və ayrı-seçkiliyə qarşı onların müdafiəsi ilə əlaqədar məsələlərin hüquqşünaslar tərəfindən daha yaxşı başa düşülməsini təmin etmək;
- hüquq bərabərliyinin təmin edilməsi üzrə milli orqanların cins əlamətinə əsaslanan ayrı-seçkiliklə mübarizə aparılması və gender bərabərliyinin təşviq edilməsi, o cümlədən bunların məhkəmə çəkişməsi vasitəsilə həyata keçirilməsi sahəsində işini dəstəkləmək və gücləndirmək;
- ədalət mühakiməsinə çıxış əldə etmə prosesində qadınların imkanlarını genişləndirmək üçün qurbanlara dəstək vasitələrini və müsbət təcrübələri müəyyənləşdirmək və yaymaq;
- xüsusilə müdafiəsiz durumda olan qadınların, məsələn, zorakılıq qurbanlarının, miqrant, qaçqın və sığınacaq axtaran qadınların, seksizmdən qaynaqlanan nifrət dolu çıxışların hədəflərinin və qaraçı qadınların tələbatlarını xüsusi olaraq nəzərə almaqla qadınların ədalət mühakiməsinə çıxış imkanlarını genişləndirmək üçün Avropa Şurasının əsas sənədləri barədə məlumatlandırıcı vasitələr hazırlamaq.

**4-cü strateji məqsəd: Siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması**

57. Qadınların və kişilərin siyasi və ictimai qərarların qəbulunda balanslı iştirakı effektiv demokratiya üçün vacibdir. Bir çox üzv dövlətlərdə yeni qanunların və siyasətlərin qəbul edilməsinə və bəzi üzv dövlətlərdə müsbət təcrübələrin və dəstəkləyici tədbirlərin nümunələrinin olmasına baxmayaraq, qadınların ictimai və siyasi həyatda yetərincə təmsil olunmaması demokratik institutların və proseslərin tam səmərəli işləməsinə xələl gətirən mühüm məsələ olaraq qalır. Siyasi fəaliyyətlər və ictimai qərarların qəbulu kişilərin üstünlük təşkil etdiyi sahələr olaraq qalmaqdadır. Kişilər siyasi prioritetləri təyin edir və siyasi mədəniyyət kişilərin davranışı və həyat təcrübəsi ətrafında qurulmaqda davam edir.

58. Bir sıra maneələr siyasi və ictimai qərarların qəbulunda qadınların iştirak etməsini və iştirakının davamlılığının təmin edilməsini çətinləşdirir. Bunların sırasına seçki sistemləri, siyasi partiyaların fəaliyyətləri, gender stereotipləri, bəzi ailə modellərinin özündə daşıdığı rollar və dəyərlər, işlərin sosial və fərdi bölgüsünün ictimai sahədə qadınların iştirakına az yer ayıran tərzdə aparılması daxildir. Bir çox üzv dövlətlərdə qadınların yerli, regional və milli səviyyədə siyasi, ictimai həyatda, qanunvericilik, icra, məhkəmə, diplomatik və idarəetmə orqanlarında tam

və bərabər iştirakı "2030-cu ilədək planetdə 50-50 nisbəti" sənədi çərçivəsində Avropa Şurasının razılaşdırdığı və hökumətlərin öhdələrinə götürdükləri standartlardan hələ də aşağı səviyyədədir.[18]

59. Ayrı-seçkiliyin çoxtərkibli və çoxşaxəli formaları, mədəni ənənələr və stereotiplər qadınları bütün səviyyələrdə idarəetmə və qərarların qəbulu proseslərində, o cümlədən korporativ idarəetmə şuralarında tam və bərabər əsasda iştirak etməkdən çəkindirə bilər. Həm dövlət sektorunda, həm də özəl sektorda iqtisadi qərarların qəbul edilməsində gender balansının pozulması qadınların imkanlarının genişləndirilməsinə mane olur və iqtisadi artıma və dayanıqlı inkişafa əngəl törədir.

60. Qadınlar siyasi gündəlik və prioritetlərin formalaşması məsələsində bərabər səlahiyyətə və təsir imkanına malik olmalıdırlar. Qadınların ictimai, şəxsi və siyasi həyatda tam iştirakına nail olunması üçün həm ictimai, həm də struktur maneələrinin aradan qaldırılmasına yönələn fundamental dəyişikliklər, siyasətlər, tədbirlər və məqsədyönlü addımlar tələb olunur.

61. Avropa Şurasının bu sahədəki fəaliyyətləri aşağıdakıları həyata keçirməyə yönələcək:

- siyasi və ictimai qərarların qəbul edilməsində qadın və kişilərin balanslı iştirakının təmin edilməsində, o cümlədən gender amilinin nəzərə alınması strategiyalarının və siyasətinin həyata keçirilməsi yolu ilə buna nail olunmasında üzv dövlətləri dəstəkləmək;
- Nazirlər Komitəsinin siyasi və ictimai qərarların qəbul edilməsində qadınların və kişilərin balanslı iştirakına dair Rec (2003)3 saylı tövsiyəsinin səmərəliliyini nəzərdən keçirmək;
- Nazirlər Komitəsinin siyasi və ictimai qərarların qəbul edilməsində qadınların və kişilərin balanslı iştirakına dair Rec (2003)3 saylı tövsiyəsinin üzv dövlətlər tərəfindən həyata keçirilməsinin mütəmadi monitorinqini davam etdirmək və üzv dövlətlərdə məlumatların və müsbət təcrübələrin əyaniliyini və yayılmasını təmin etmək;
- Avropa Şurasının müvafiq orqanları ilə əməkdaşlıq şəraitində qadınların milli, regional və yerli səviyyələrdəki seçkilərdə iştirakını asanlaşdırmağa yönələn tədbirləri təşviq etmək və dəstəkləmək, habelə qadın namizədlərin və vəzifəyə seçilmiş qadınların (cəmiyyətin həyatından kənarlaşdırılmış qruplardan olan qadınlar da daxil olmaqla) imkanlarının genişləndirilməsinə yönələn addımlar atmaq;
- qərarların qəbulunda gender balansının gözlənilməsi, gender stereotipləri ilə mübarizə və qərarların qəbulu prosesində gender amilinin nəzərə alınması işinin yaxşılaşdırılması məqsədi ilə Avropa Şurasının müvafiq orqanları ilə əməkdaşlıq şəraitində seçki sistemləri; həm dövlət qurumlarında, həm də siyasi partiyalarda qərarları qəbul edənlərə təlim keçilməsi; qərarları qəbul edən orqanların fəaliyyətlərində gender amilinin nəzərə alınması; bərabərlik təmsilçilik hədlərinin müəyyən edilməsi; kvotalar barəsində səmərəli qanunların və könüllü partiya kvotalarının qəbul edilməsi; və siyasi partiyaların fəaliyyətlərinin, o cümlədən dövlət tərəfindən maliyyələşdirilməsinin tənzimlənməsi sahəsində gender bərabərliyini təşviq edən tədbirləri və müsbət təcrübələri müəyyənləşdirmək və dəstəkləmək.
- Avropa Şurasının bütün orqanlarında, institutlarında və qərarlarının qəbul edilməsi proseslərində qadınların və kişilərin balanslı iştirakına nail olmaq.

---

[18] *"2030-cu ilədək planetdə 50-50 nisbəti: Gender bərabərliyinə doğru irəliləyək"* təşəbbüsünə 2015-ci ildə qeyd edilmiş Beynəlxalq Qadınlar Günü münasibəti ilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən başlanılıb. O, 2030-cu ilə qədər gender bərabərliyinə nail olmaq üçün dövlətlərin öhdələrinə götürdükləri milli tədbirləri özündə əks etdirir. Bu sayta bax: http://www.unwomen.org/en/get-involved/step-it-up.

**5-ci strateji məqsəd: Miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların hüquqlarının qorunması**

62. Miqrant, qaçqın və sığınacaq axtaran qadınların sayının artması və düşdükləri təhlükəli vəziyyət onların şəxsi, fiziki və cinsi təhlükəsizlik və salamatlığı ilə bağlı narahatlıqlar doğurur və bu da xüsusən onların təkbaşına səyahət etdiyi, hamilə olduğu, kiçik uşaqları ilə birlikdə olduğu və ya çoxşaxəli ayrı-seçkiliklərə məruz qaldığı hallara aiddir. Bir çox miqrant, qaçqın və sığınacaq axtaran qadınlar və qızlar ya öz mənşə ölkələrində, ya da Avropaya getdikləri yolda və ya oraya çatdıqdan sonra gender əsaslı zorakılığın müxtəlif formalarına məruz qalırlar. Onların tələbatlarına və vəziyyətlərinə lazımi diqqət yetirilməli və ayrı-seçkiliyin, zorakılığın, təqibin, insan alverinin və digər istismar və sui-istifadə formalarının qarşısını almaq üçün gender amilini nəzərə alan tədbirlər görülməli və bu tədbirlər böhran və ya təbii fəlakət dövrlərində də həyata keçirilməlidir. Bundan əlavə, məcburi köçkün, qaçqın və sığınacaq axtaran qadınların fərdi azadlıq, məşğulluq, mənzil təminatı, sağlamlıq, təhsil, sosial müdafiə və sosial təminat sahəsindəki insan hüquqlarından və sosial hüquqlarından istifadə etməsi, habelə öz hüquqları haqqında və mövcud xidmətlər barəsində məlumat əldə edə bilməsi üçün tədbirlər görülməlidir.

63. Miqrant, qaçqın və sığınacaq axtaran şəxslər arasında insan alverinin və gender əsaslı zorakılığın qurbanları dərhal müəyyənləşdirilməli və gender amilləri nəzərə alınmaqla müdafiə, müalicə və qayğı ilə təmin edilməlidirlər. Bu baxımdan qızlara və oğlanlara xüsusi diqqət yetirilməsi tələb olunur.

64. Avropa Şurasının sənədləri və digər beynəlxalq sənədlər miqrant, qaçqın və sığınacaq axtaran qadınların insan hüquqlarının qorunması istiqamətində üzv dövlətlərin göstərdiyi səylər və həyata keçirdiyi tədbirlər üçün plan rolunu oynamalıdır. Xüsusən İstanbul Konvensiyası, İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya, Lanzarot Konvensiyası və Qaçqınların statusu haqqında 1951-ci il tarixli Beynəlxalq Konvensiya, habelə qaçqın qadınların və qızların gender əsaslı zorakılıqdan müdafiəsi və miqrasiya məsələlərinə gender bərabərliyi perspektivindən yanaşılması haqqında Avropa Şurasının Parlament Assambleyasının müvafiq qətnamə və məruzələri miqrant, qaçqın və sığınacaq axtaran qadınların, qızların və oğlanların hüquqlarının müdafiəsinə və təşviqinə yönələn səylərdə mərkəzi yer tutmalı, o cümlədən bu konvensiyalarda nəzərə tutulduğu kimi, mədəni amillərin, adət və ənənələrin, yaxud "namus" adlandırılan amilin hər hansı zorakılıq aktlarına, neqativ sosial nəzarətə və ya insan hüquqlarının pozulmasına haqq qazandıran amillər kimi nəzərə alınmaması təmin edilməlidir.

65. Bütün inteqrasiya tədbirlərində gender bərabərliyinin nəzərə alınması olduqca vacibdir, belə ki, həm miqrant qadınlar, həm də miqrant kişilər gender bərabərliyinə dair qanunvericiliyə və siyasətə, hətta bu qanunvericilik və siyasət onların mənşə ölkəsindəki vəziyyətə uyğun olmasa belə, riayət etməyin və onları dəstəkləməyin zəruri olduğunu dərk etməlidirlər. Bu onların Avropa cəmiyyətlərinə və əmək bazarlarına inteqrasiyasına şərait yaradacaq və bütün qadınlara və kişilərə, qızlara və oğlanlara fayda verəcəkdir. Bu iş hər bir cəmiyyətdə gender bərabərliyinin qadınlar və kişilər tərəfindən qəbul edilən normaya çevrilməsinə yönələn ümumi səylərin tərkib hissəsi olmalıdır.

66. Avropa Şurasının bu sahədəki fəaliyyətləri aşağıdakıları həyata keçirməyə yönələcək:

- Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitənin qadınlara münasibətdə qaçqın statusu, sığınacaq vermə, vətəndaşlıq və vətəndaşsızlıq məsələlərinin gender aspektlərinə dair 32 saylı ümumi tövsiyəsi və DİM nəzərə alınmaqla, Avropa Şurasının sənədlərinin və digər müvafiq sənədlərin, o cümlədən bu Təşkilatın Avropada qaçqın və miqrant uşaqların müdafiəsinə dair fəaliyyət planının müddəalarının həyata keçirilməsində üzv dövlətlərə dəstək vermək;

- ənənəvi və ya mədəni yanaşmalardan asılı olmayaraq miqrant, qaçqın və sığınacaq axtaran qadınların və qızların, kişilərin və oğlanların insan hüquqlarının və əsas azadlıqlarının təmin edilməsi məqsədi ilə miqrasiya, sığınacaq vermə və inteqrasiya ilə bağlı siyasət və tədbirlərə gender bərabərliyi amilinin sistematik olaraq daxil edilməsini dəstəkləmək;
- miqrantların, qaçqınların və sığınacaq axtaran qadınların və uşaqların gender əsaslı zorakılığın, cins əlamətinə əsaslanan sui-istifadə hallarının, insan alverinin, cinsi istismarın və neqativ sosial nəzarətin qurbanına çevrilməsinin qarşısının alınmasına yönələn mövcud standartların həyata keçirilməsini dəstəkləmək, o cümlədən milli səviyyədə belə halların müəyyənləşdirilməsi, barəsində məlumat verilməsi və qurbanların lazımi yerlərə göndərilməsi mexanizmləri vasitəsilə bu riskləri aradan qaldırmaq. Yetkinlik yaşına çatmayanları müşayiət edən qadınların müdafiəsiz durumda olması dərk edilməlidir ki, bu qadınlara və uşaqlara lazımi qayğı və dəstək göstərilməsi təmin edilmiş olsun;
- İstanbul Konvensiyasına, İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyaya və Lanzarot Konvensiyasına daxil edilmiş tədbirləri nəzərə almaqla, zorakılıq qurbanı olan miqrant, qaçqın və sığınacaq axtaran qadınlarla və uşaqlarla durumlarına uyğun rəftar edilməsinin dəstəklənməsinə yönələn vasitələr hazırlamaq;
- miqrant, qaçqın və sığınacaq axtaran qadınların və qızların iqtisadi imkanlarının genişləndirilməsini və sosial hüquqlarına, xüsusən məşğulluq, səhiyyə, mənzil təminatı və təhsil sahələrindəki hüquqlarına hörmət edilməsini təşviq etmək və qarşılaşa biləcəkləri çoxtərkibli ayrı-seçkiliyin qarşısını almaq;
- Nazirlər Komitəsinin miqrant qadınlarla bağlı üzv dövlətlərə R (79) 10 saylı tövsiyəsini yeniləmək və icrasını mütəmadi yoxlamaq;
- miqrant, qaçqın və sığınacaq axtaran qadınların və kişilərin insan hüquqlarının qorunmasına yönələn Avropa Şurasının əsas sənədləri barədə, o cümlədən onların olduqları ölkədəki yardım strukturları və xidmətləri, QHT-lər və mövcud hüquqi yardım imkanları haqqında müxtəlif dillərdə məlumatlandırıcı sənədlərin (məsələn, məlumat bülletenlərinin) hazırlanmasında və yayılmasında üzv dövlətlərə dəstək göstərmək. Zorakılıq qurbanı olan qadınlar üçün xüsusi məlumat bülletenləri hazırlanmalıdır;
- Avropa Şurasının müstəqil monitorinq mexanizmlərini qızlar və oğlanlar da daxil olmaqla miqrant, qaçqın və sığınacaq axtaran şəxslərin cins əlamətinə əsaslanan xüsusi tələbatlarının təmin edilməsinin yoxlanılmasını lazımi hallarda öz monitorinq fəaliyyətlərinə daxil etməyə təşviq etmək və bu məsələ ilə bağlı tövsiyələr vermək;
- gender bərabərliyindən həm qadınların, həm də kişilərin faydalanmasında irəliləyişə nail olmaq üçün stereotip norma və praktikaları dəyişmək məqsədilə kişilərə və oğlanlara ünvanlanan tədbirləri təşviq etmək.

**6-cı strateji məqsəd: Bütün siyasət və tədbirlərdə gender bərabərliyinin nəzərə alınmasına nail olmaq**

67. Gender amilinin nəzərə alınmasına dair Avropa Şurasının sənədləri Avropada və onun hüdudlarından kənarda bu sahədə mühüm işin təməlini qoydu, o cümlədən bu terminin anlayışını müəyyənləşdirdi. Nazirlər Komitəsi müxtəlif sahələrdə, o cümlədən təhsil, media, idman və audiovizual sektorda gender amilinin nəzərə alınmasına dair bir sıra tövsiyələr qəbul etdi.[19] Qadınların inkişafına yönələn konkret siyasətlərlə birlikdə həmçinin bütün siyasət və tədbirlərdə gender amilinin nəzərə alınmasına əsaslanan yanaşmanı qəbul etməklə Avropa Şurası yeni

[19] Gender amilinin nəzərə alınmasına dair R(98)14 saylı tövsiyə; Təhsil sahəsində gender amilinin nəzərə alınmasına dair Rec(2007)13 saylı tövsiyə; Səhiyyə siyasətinə gender müxtəlifliyi məsələlərinin daxil edilməsinə dair Rec(2008)1 saylı tövsiyə; Gender bərabərliyi və media haqqında Rec(2013)1 saylı tövsiyə; İdman sahəsində gender amilinin nəzərə alınmasına dair Rec(2015)2 saylı tövsiyə; və Audiovizual sektorda gender bərabərliyinə dair Rec(2017)9 saylı tövsiyə.

təşəbbüslərdə və standartlarda gender amilinin nəzərə alınmasını təmin etmiş olacaq ki, bu da siyasətin daha məlumatlı şəkildə hazırlanmasını, resursların daha səmərəli yerləşdirilməsini və daha yaxşı idarəçiliyi və son nəticədə gender bərabərliyinin gerçəkləşməsini təmin edəcək.

68. Bir çox üzv dövlətlər həmçinin gender amilinin nəzərə alınmasına yönələn səylərini, gender məsələlərinə büdcə vəsaiti ayrılması siyasətini və dövlət qulluqçularına müvafiq təlimlər keçirilməsini koordinasiya etmək məqsədi daşıyan fəaliyyət planları və institusional strukturlar vasitəsilə öz milli siyasət və tədbirlərində gender amilinin nəzərə alınmasını fəal şəkildə təşviq edirlər. Bu sahədə mövcud olan problemləri qiymətləndirmək məqsədi ilə milli səviyyədə mütəmadi olaraq gender amilinin nəzərə alınması fəaliyyətlərinin həyata keçirilməsinin qiymətləndirilməsi aparılmalıdır. Əməkdaşlıq proqramları, layihələri və fəaliyyətləri hazırlanarkən gender amilinin təhlilinin və gender bərabərliyinin nəzərə alınmasının təmin edilməsi üçün mümkün olan hallarda Avropa Şurasının ölkələrdəki nümayəndəlikləri ilə əməkdaşlıq edilməsi mühüm rol oynayır.

69. 2014-2017-ci illərdə Avropa Şurasının bir çox sahələrdəki və bütün səviyyələrdəki siyasətlərinə gender bərabərliyi perspektivinin daxil edilməsi üçün Avropa Şurasının müxtəlif qurumlarında, idarəetmə komitələrində, monitorinq mexanizmlərində və bəzi üzv dövlətlərlə bağlanan sazişlərdə əməkdaşlıq və işbirliyi daha da gücləndirildi. Rəhbər komitələrdə, digər institusional orqanlarda, eləcə də monitorinq mexanizmlərində 50-dən çox gender bərabərliyi məsələləri üzrə məruzəçi (GBM) təyin edildi. Onlar bu qurumların işlərinə və fəaliyyətlərinə gender bərabərliyi aspektinin daxil edilməsinə yönələn səylərə rəhbərlik edirlər.

70. Avropa Şurası bütün siyasət sahələrində, o cümlədən aşağıdakı sahələrdə gender amilinin nəzərə alınmasına nail olmaq üçün mübarizə aparmaqda davam edəcək:

- ölkələr üzrə fəaliyyət planlarına və tematik fəaliyyət planlarına və digər əməkdaşlıq sənədlərinə əsaslanan fəaliyyətlərinin hazırlanması, həyata keçirilməsi və qiymətləndirilməsi sahəsində və Daxili Nəzarət Direktorluğu ilə əməkdaşlıq çərçivəsində gender amilinin nəzərə alınmasının qiymətləndirməsinin nəticəsi olan tövsiyələrin nəzərə alınmasında;
- xüsusən aşağıdakıların səfərbər edilməsi və yardımı vasitəsilə siyasətin, proqramların və büdcə proseslərinin hazırlanması və müxtəlif orqanların və qurumların fəaliyyətlərinin həyata keçirilməsi sahəsində:
  - Nazirlər Komitəsi, Parlament Assambleyası, Yerli və Regional Hakimiyyətlər Konqresi, Avropa İnsan Hüquqları Məhkəməsi, İnsan Hüquqları üzrə Komissar, Müvəkkili və Beynəlxalq Qeyri-Hökumət Təşkilatları (BQHT) Konfransı;
  - idarəetmə komitələri və digər hökumətlərarası orqanlar;
  - monitorinq mexanizmləri;
  - bəzi üzv dövlətlərlə bağlanan sazişlər;

və bunun üçün aşağıdakı fəaliyyətləri həyata keçirəcək:

- qadınların və kişilərin, qızların və oğlanların müxtəlif qruplarının xüsusi vəziyyətinə və cins əlamətinə əsaslanan tələbatlarının təmin edilməsinə, eləcə də yeni siyasətlərin və tədbirlərin onlara təsirlərinin qiymətləndirilməsinə yönələn siyasi təhlili dəstəkləmək və gəlinən qənaətləri siyasətin hazırlanması prosesində nəzərə almaq;
- gender bərabərliyi və gender amilinin nəzərə alınması üzrə xüsusi təlimlərin keçirilməsini təmin etmək və müvafiq materialları və vasitələri hazırlamaq, xüsusən Avropa Şurasının personalını öz işlərində və fəaliyyətlərində, o cümlədən əməkdaşlıq fəaliyyətlərinin hazırlanmasında, həyata keçirilməsində və qiymətləndirilməsində gender amilini necə nəzər almalı olduqları barədə təlimat və vasitələrlə təmin etmək;
- Avropa Şurasının müxtəlif sektorlarını standartların müəyyənləşdirilməsi, monitorinq və əməkdaşlıq fəaliyyətləri çərçivəsində cins əlamətləri üzrə bölünmüş məlumatların hazırlanması tələbatının təmin edilməsinə sövq etmək;

- lazımi hallarda müvafiq maraqlı tərəflərin, o cümədən gender bərabərliyi məsələləri üzrə ekspertlərin və vətəndaş cəmiyyətinin prosesə cəlb olunmasının təmin edilməsinə lazımi diqqət yetirmək;
- milli gender bərabərliyi mexanizmləri və gender amilinin nəzərə alınmasına yönələn digər institusional strukturlar haqqında məlumatları toplamaq və nəzərdən keçirmək;
- gender amilinin nəzərə alınması, o cümlədən bunun üçün büdcə vəsaiti ayrılması sahəsində üzv dövlətlərin, Avropa Şurasının və digər regional və ya beynəlxalq təşkilatların müsbət təcrübələrini müəyyənləşdirmək və yaymaq.

71. GBM-lərə və onlarla işləyən Katiblik üzvlərinə təlimlər keçirilməsi və dəstək göstərilməsi, eləcə də siyasət məsələlərinə dair yardımçı vasitələrin işlənib hazırlanması, irəliləyişlərin qiymətləndirilməsi üçün göstəricilərin (indikatorların) hazırlanması, bilik və təcrübələrin təmin edilməsi, həm Təşkilat daxilində, həm də müvafiq milli və beynəlxalq tərəfdaşlarla işbirliyinə və məlumatların və müsbət təcrübələrin mübadiləsinə şərait yaradılması davam etdiriləcək.

72. Avropa Şurası həmçinin mövcud standartların inkişaf etdirilməsi və üzv dövlətlərdən məlumatların toplanması və onların müsbət təcrübələrinin yayılması yolu ilə üzv dövlətlərdə güclü və səmərəli gender bərabərliyi mexanizmlərinin və gender amilinin nəzərə alınması fəaliyyətlərinin təşviqini fəal surətdə davam etdirəcək.

73. Avropa Şurası öz personalı ilə bağlı siyasətlərində gender bərabərliyinin nəzərə alınması işini davam etdirəcək, o cümlədən irəliləyişləri ölçmək və qiymətləndirmək üçün alətlər və göstəricilər (indikatorlar) hazırlayacaq.

## II. İNSTİTUSİONAL STRUKTUR, RESURSLAR VƏ İŞ METODLARI

74. Gender bərabərliyi proqramının çoxaspektli xarakteri Avropa Şurasının bütün qurumlarının (Parlament Assambleyası, Yerli və Regional Hakimiyyətlər Konqresi, Avropa İnsan Hüquqları Məhkəməsi), qərarverici, məsləhət və monitorinq orqanlarının, eləcə də insan resurslarına aid siyasətlərin yeni gender bərabərliyi strategiyasının hədəfinə və strateji məqsədlərinə nail olunmasına yardımçı olmasını və fəal surətdə töhfə verməsini nəzərə tutur. Onlar müvafiq mandat və resursları çərçivəsində təşəbbüskarlıq göstərməyə dəvət edilirlər. Bu prosesin stimullaşdırılması və asanlaşdırılması üçün aşağıdakı elementlər Avropa Şurasının gender bərabərliyi üzrə institusional strukturlarını tamamlayır.

75. Gender Bərabərliyi Komissiyası (GBK) Avropa Şurasının 47 üzv dövlətin nümayəndələrindən ibarət olan rəhbər komitəsidir. GBK-nin missiyası "Gender bərabərliyinə dair çoxaspektli proqram"ı idarə etmək, onun müxtəlif komponentləri ilə bağlı məsləhətlər vermək və fəaliyyətləri yerinə yetirmək, eləcə də müvafiq hökumətlərarası orqanların fəaliyyətlərini əlaqələndirmək, bilik və təcrübəsini bölüşmək və müsbət təcrübələrin mübadiləsi və narahatlıq doğuran məsələlərin müzakirəsi üçün forum rolunu oynamaqdan ibarətdir.

76. Hökumətlərarası orqanlar çərçivəsində və Avropa Şurasının digər strukturları çərçivəsində təyin edilən gender bərabərliyi məsələləri üzrə məruzəçilər (GBM) tərkibində olduqları müvafiq orqan və ya strukturun işinə, siyasətinə, proqram və fəaliyyətlərinə gender bərabərliyi perspektivinin daxil edilməsi yollarının müəyyənləşdirilməsi istiqamətində fəaliyyət göstərirlər. Onlar GBK ilə əməkdaşlıq şəraitində gender bərabərliyinin təşviqinə yönələn yeni tədbir və fəaliyyətlərin hazırlanması imkanlarını müəyyənləşdirirlər.

77. Gender Bərabərliyi Məsələləri Qrupu (GBMQ) Avropa Şurasının müxtəlif sektorlarında və orqanlarında xidmət edən əməkdaşlarının qrupudur. Onun vəzifəsi məlumat və bilikləri paylaşmaq, nəticələrin əyaniliyini təmin etmək, birgə fəaliyyətlər üçün imkanları

müəyyənləşdirmək və "Gender bərabərliyinə dair çoxaspektli proqramın, o cümlədən yeni Strategiyanın həyata keçirilməsini asanlaşdıran təkliflər irəli sürməkdən ibarətdir. Gender Bərabərliyi Komissiyası Gender Bərabərliyi Məsələləri Qrupunun iclaslarını çağırır və bu iclaslara sədrlik edir.

78. Strategiyanın həyata keçirilməsində irəliləyişi qiymətləndirmək üçün GBK əldə edilmiş nəticələri mütəmadi olaraq nəzərdən keçirir və Strategiyanın həyata keçirilməsi ilə bağlı illik hesabat hazırlayır, həmin hesabat Nazirlər Komitəsinə təqdim edilir. Strategiyanın təsirinin qiymətləndirilməsi məqsədi ilə onun həyata keçirilməsinin yekun dəyərləndirilməsi aparılacaq.

## III. TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİ

79. Avropa Şurası gender bərabərliyinin və qadın hüquqlarının təşviqi sahəsində çalışan digər regional və beynəlxalq təşkilatlarla və vətəndaş cəmiyyəti ilə strateji tərəfdaşlıq münasibətlərinin saxlanmasına böyük önəm verir. Avropa Şurasının bütün əsas tərəfdaşları (Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı (Aİ), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Amerika Dövlətləri Təşkilatı (ADT)) gender bərabərliyinə dair strategiyalar və ya fəaliyyət planları qəbul ediblər. Bu, tərəfdaşlıq və institusional əməkdaşlıq üçün möhkəm baza təşkil edir və müştərək tədbirlər, bir-birini tamamlayan fəaliyyətlər və işbirliyi üçün imkanların müəyyənləşdirilməsinə şərait yaradır.

80. Avropa Şurası digər beynəlxalq təşkilatlarla, o cümlədən Aİ,[20] ATƏT,[21] "BMT-Qadınlar" strukturu,[22] BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMTİHAK),[23] ADT[24] və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) [25] ilə bir sıra institusional sazişlər bağlayıb. Buna görə də onlar Avropa Şurası ilə mütəmadi məsləhətləşmələr aparmaq, görüşlərdə və tədbirlərdə iştirak etmək və birgə təşəbbüslərdə əməkdaşlıq etmək vasitəsilə bu yeni Strategiyanın həyata keçirilməsinə töhfə verməyə dəvət edilirlər. Avropa Şurası BMT-nin digər agentlikləri və orqanları ilə (xüsusən Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitə ilə, Qadınların Statusu üzrə Komissiya (QSK) ilə), "BMT-nin Qlobal Müqaviləsi" təşəbbüsü ilə, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Uşaq Fondu (YUNİSEF) ilə, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO) ilə və digər beynəlxalq təşkilatlarla (məsələn, Dünya Bankı və Beynəlxalq Fransızdilli Ölkələr Təşkilatı (Frankofoniya) ilə) əməkdaşlığını möhkəmləndirməyə çalışacaq. Əməkdaşlıqda məqsəd "Dayanıqlı inkişaf məqsədləri"ni yerinə yetirməklə konkret olaraq üzv dövlətlərin və bütövlükdə beynəlxalq ictimaiyyətin həm Pekin Fəaliyyət Platformasının müddəalarının, həm də BMT-nin 2030-cu il üçün "Dayanıqlı inkişaf məqsədləri"nin həyata keçirilməsinə yönələn səylərini dəstəkləməkdən ibarətdir.

81. "Gender bərabərliyinə dair çoxaspektli proqramın məqsədi həm də siyasət, proqram və fəaliyyətlərin hazırlanması, həyata keçirilməsi və qiymətləndirilməsinə vətəndaş cəmiyyəti təşkilatlarını, xüsusən qadın hüquqları və gender bərabərliyi məsələləri üzrə ixtisaslaşmış təşkilatları cəlb etmək, onların biliklərindən bəhrələnmək və təcrübələrindən istifadə etməkdir.

---

[20] Avropa Şurası və Avropa İttifaqı arasında Anlaşma Memorandumu (may 2007-ci il).

[21] Avropa Şurası və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasında Əməkdaşlıq haqqında Bəyannamə (may 2005-ci il).

[22] Avropa Şurası ilə "BMT Qadınlar" strukturu arasında gender bərabərliyi və qadınlara qarşı zorakılıq məsələləri ilə bağlı beynəlxalq standartların həyata keçirilməsinin təşviqi ilə əlaqədar məktublar mübadiləsi (fevral 2012-ci il).

[23] Avropa Şurasının Katibliyi ilə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı arasında əməkdaşlığın möhkəmləndirilməsinə dair birgə bəyannamə (sentyabr 2013-cü il).

[24] Avropa Şurasının Baş Katibliyi ilə Amerika Dövlətləri Təşkilatının Baş Katibliyi arasında Anlaşma Memorandumu (sentyabr 2011-ci il).

[25] Avropa Şurası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı arasında məktublar mübadiləsi vasitəsilə bağlanmış saziş (sentyabr 1961-ci il və yanvar 1962-ci il).

82. Gender bərabərliyi strategiyasının həyata keçirilməsi sahəsində digər təbii tərəfdaşlar sırasına aşağıdakılar daxildir:

- parlamentlər;
- milli hökumətlər;
- yerli və regional hakimiyyət orqanları və onların assosiasiyaları;
- gender bərabərliyi qurumları;
- insan hüquqları institutları;
- müəyyən peşə sahibləri (xüsusən ədalət mühakiməsi, jurnalistika, təhsil, səhiyyə və sosial xidmətlər sahəsində çalışanlar);
- həmkarlar ittifaqları və işəgötürənlərin assosiasiyaları;
- kütləvi informasiya vasitələri;
- özəl sektor.

## IV. KOMMUNİKASİYA

83. Bu sahədəki işlər aşağıdakıları həyata keçirməyə yönələcək:

- gender bərabərliyi sahəsində Avropa Şurasının standartlarının, tədqiqatlarının, təlimatlarının, layihələrinin, tədbirlərinin və onların nəticələrinin əyaniliyini artırmaq;
- gender bərabərliyi məsələlərinə dair məlumatlılığı artırmaq və yanaşmaların, mentalitetlərin və davranışların dəyişdirilməsinə töhfə vermək;
- proqramın müxtəlif komponentləri və tərəfdaşlar arasında informasiya mübadiləsini asanlaşdırmaq;
- milli, regional və yerli səviyyədə müsbət təcrübələrin və toplanmış məlumatların əyaniliyini təmin etmək.

## ƏLAVƏ I. Risklərin idarə olunması və Strategiyanın milli səviyyədə həyata keçirilməsi

Çoxsaylı ümumi çətinliklər və maneələr qadınlar və kişilər arasında *de facto* bərabərliyin gerçəkləşməsinə təsir göstərməkdə davam edir. Bunun səbəbi hazırkı iqtisadi və siyasi şəraitdən və tarixən formalaşmış struktur xarakterli maneələrdən ibarətdir ki, bunlar da qadınlar və kişilər arasında səlahiyyətlərin və resursların qeyri-bərabər bölgüsü ilə, bir çox dövlət qurumlarının və özəl təsisatlarının fəaliyyətində, hüquqi bazada və mentalitetlərdə kök salmış davamlı gender stereotipləri ilə əlaqədardır. Siyasi öhdəliklərə sadiqliyin olmaması, digər nəticələrlə yanaşı, mövcud standartların zəif tətbiq edilməsinə və yetərincə maliyyə və insan resurslarının olmamasına gətirib çıxarır ki, bu da bütün prioritet sahələrə şamil olunan ümumi risk faktorudur.

2018-2023-cü illəri əhatə edən Strategiya sənədində hər bir prioritet ilə əlaqədar **risklərin təhlilini özündə əks etdirən cədvəl** var. Cədvəllərdə hər bir prioritet sahə üçün benefisiarlar səviyyəsində gözlənilən təsirlər və ya son məqsəd göstərilir. Milli və yerli səviyyələrdə işlərin gedişatına və strukturlarına uyğun olaraq buna bir çox müxtəlif yollarla nail olmaq olar.

Risklərin təhlili cədvəllərində mümkün ola bilən bəzi ümumi nümunələr təqdim edilər:
- üzv dövlətlər səviyyəsində nəticələrə nail olmağa mənfi təsir göstərə bilən risk amilləri;
- risk amillərini dəf etməyə yönələn yüngülləşdirici tədbirlər;
- atılan addımların gözlənilən təsirləri və nəticələri.

Nümunələr əyani misal xarakteri daşıyır və milli və yerli səviyyələrdə mümkün variantların hamısını əhatə etmir. Strategiyaların, fəaliyyət planlarının, göstəricilərin (indikatorların) və digər müvafiq siyasət sənədlərinin və standartlarının əsasında milli və yerli səviyyələrdə Strategiya həyata keçirildiyi zaman digər nümunələr, həmçinin xüsusi tədbirlər və fəaliyyətlər (nəticələr) ətraflı araşdırılacaq.

Üzv dövlətlər və digər maraqlı subyektlər tərəfindən milli və yerli səviyyələrdə həyata keçiriləcək tədbirlərdən əlavə, Avropa Şurası tərəfindən üzv dövlətlərlə əməkdaşlıq şəraitində həyata keçiriləcək seçmə tədbirlərin və fəaliyyətlərin (nəticələrin) ikiillik iş planı hazırlanacaq.

<table>
<tr><th colspan="3">Risklərin təhlili</th></tr>
<tr><th colspan="3">1-ci strateji məqsəd:<br>Gender stereotiplərinin və seksizmin qarşısının alınması və onlarla mübarizə aparılması</th></tr>
<tr><th colspan="3">Gözlənilən təsirlər:<br>Həyatın bütün sahələrində gender stereotiplərinin və seksizmin kökü kəsiləcək</th></tr>
<tr><th>Risklər</th><th>Riskləri azaldan tədbirlər</th><th>Nəticə</th></tr>
<tr><td>Gender stereotipləri və seksizm hökmran mövqe tutur və qadınların hüquqlarına qarşı hazırkı mənfi reaksiyalar onları daha da gücləndirir.</td><td>- Avropa Şurası standartlarının tətbiqi istiqamətində ciddi addımlar atmaq və əməkdaşlıq etmək.<br>- Seksizmin qarşısını almağa və onunla mübarizəyə yönələn yeni standartları qəbul etmək və yaymaq.<br>- Regionda mövcud standartlar və gender bərabərliyinin vəziyyəti barədə məlumatlılığı artırmaq.</td><td>- De facto gender bərabərliyinə nail olmanın zəruriliyi və faydaları bütün üzv dövlətlər və müvafiq subyektlər tərəfindən qəbul ediləcək.<br>- Üzv dövlətlərdə müvafiq standartlar bütünlüklə tətbiq ediləcək.<br>- Üzv dövlətlərdə müvafiq standartların bütünlüklə tətbiq edilməsi üçün qanunvericilikdə və siyasətdə dəyişikliklər ediləcək.</td></tr>
</table>

| | | |
|---|---|---|
| Mediada qadınların qeyri-adekvat qadın obrazının yaradılması, informasiya-kommunikasiya texnologiyalarının (İKT) mənfi rolu və təhsil siyasəti ilə bağlı müvafiq tədbirlərin olmaması gender stereotiplərini və seksizmi gücləndirir. | - Özəl sektor da daxil olmaqla müvafiq subyektlər arasında məlumatlılığın artırılması üzrə fəaliyyətlər həyata keçirmək.<br>- Mediada və təhsil sahəsində gender stereotipləri ilə bağlı müvafiq standartları təşviq etmək.<br>- Media, İKT və təhsil sahəsindəki siyasətlə bağlı müsbət təcrübələri müəyyənləşdirmək və təşviq etmək. | - Təhsil, media və İKT sektorlarında gender stereotiplərinin və seksizmin kökünün kəsilməsi üçün qanunvericilikdə və siyasətdə dəyişikliklər ediləcək.<br>- Üzv dövlətlərdə sosial media da daxil olmaqla kütləvi informasiya vasitələrində qadınların və kişilərin real obrazı yaradılacaq.<br>- Gender bərabərliyinə nail olunmasına media və İKT öz töhfələrini verəcək və qadınların və qızların bu sektorlarda bütün potensiallarından istifadə etmək imkanları genişlənəcək. |

| **Risklərin təhlili** | | |
|---|---|---|
| **2-ci strateji məqsəd:<br>Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə aparılması** | | |
| **Gözlənilən təsirlər:<br>Qadınlar zorakılıqdan, istismardan və sui-istifadə hallarından azad olacaq; qadınlar zorakılığın qarşısının alınması, zorakılıqdan müdafiə, təqsirkarların məsuliyyətə cəlb olunması və zərərçəkənlərin dəstəklənməsi üzrə müvafiq xidmətlərə tam çıxış imkanı əldə edəcəklər** | | |
| **Risklər** | **Riskləri azaldan tədbirlər** | **Nəticə** |
| Qadınlara qarşı zorakılıq və məişət zorakılığı halları gözdən kənarda qalır, belə hallar barədə danışmağa qadağa qoyulur və belə halların yalnız az qismi barədə məlumat verilir. | - Qadınlara qarşı zorakılığın və məişət zorakılığının müxtəlif formaları barədə məlumatlılığı artırmaq və onların baş verməsinin etiraf edilməsi, qarşısının alınması və barələrində məlumat verilməsi üzrə təlimlər keçmək.<br>- Belə halların miqyası ilə bağlı informasiyaları yaymaq. | - İstanbul Konvensiyası üzv dövlətlər tərəfindən ratifikasiya olunacaq və tətbiq ediləcək.<br>- Üzv dövlətlər İstanbul Konvensiyasının tələblərinə tam riayət etmək üçün siyasət və praktikalarında dəyişiklik edəcəklər.<br>- Müvafiq maraqlı tərəflər (media, özəl sektor, təhsil sektoru, ədliyyə sektoru) qadınlara qarşı zorakılığın və məişət zorakılığının kökünün kəsilməsinə diqqətlə yanaşacaq və öz töhfələrini verəcəklər.<br>- Üzv dövlətlər Avropa Şurasının insan alverinə qarşı konvensiyasını və Lanzarot |

| | | |
|---|---|---|
| | | Konvensiyasını ratifikasiya edəcək və həyata keçirəcəklər. |
| Qadınlara qarşı zorakılıq və məişət zorakılığı halları barədə məlumatlar hüquq mühafizə orqanları, media və ailə üzvləri tərəfindən ciddi qəbul edilmir və ya başa düşülmür və qurbanlar müdafiə edilmirlər. | - Gender amilini nəzərə alan və zorakılıq hallarının qarşısının alınması və qurbanların müdafiəsi istiqamətində məlumatlılığı artıran fəaliyyətləri həyata keçirmək.<br>- Müvafiq maraqlı tərəflərə ünvanlanan treninq vasitələrini hazırlamaq və yaymaq.<br>- Müvafiq maraqlı subyektlərə təlim keçmək.<br>- Müsbət və perspektivli təcrübələr barədə məlumatları yaymaq. | - Müvafiq maraqlı tərəflər qadınlara qarşı zorakılıq və məişət zorakılığı halları ilə mübarizə ilə bağlı maneələr, proseslər və qanunvericilik barədə məlumatlı olacaq və qurbanların müdafiəsi üçün lazımi qaydada hərəkət edə biləcəklər.<br>- Üzv dövlətlərdə zorakılıq halları ilə qarşılaşan qadınlar üçün adekvat dəstək xidmətləri, müdafiə və kompensasiya təmin ediləcək. |
| Gender əsaslı zorakılıqla qarşılaşan bəzi qruplar, məsələn, yaşlı qadınlar və ya kişilər, miqrant qadınlar və qızlar, kişilər və oğlanlar, əlil şəxslər müvafiq siyasətlər hazırlanarkən nəzərə alınmırlar. | - Müxtəlif qrupların qarşılaşdığı konkret zorakılıq formaları barədə məlumatlılığı artırmaq.<br>- Müxtəlif qrupların tələbatlarına uyğunlaşdırılan xüsusi vasitələr, təlimlər və siyasət sənədləri işləyib hazırlamaq. | - Müdafiəsiz vəziyyətdə olan qadın və qız qruplarının, eləcə də kişi və oğlanların zorakılıqdan müdafiəsi gücləndiriləcək.<br>- İstanbul Konvensiyası ilə təmin edilən hüquqların vahid qaydada istifadəsi təmin ediləcək. |

| **Risklərin təhlili** | | |
|---|---|---|
| **3-cü strateji məqsəd:<br>Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi** | | |
| **Gözlənilən təsirlər:<br>Qadınlar ədalət mühakiməsinə bərabər çıxış imkanı əldə edəcəklər** | | |
| **Risklər** | **Riskləri azaldan tədbirlər** | **Nəticə** |
| Qadınların ədalət mühakiməsinə çıxışı ilə bağlı bilgilər yoxdur və bu sahədəki tədbirlərə müqavimət göstərilir. | - Qadınların ədalət mühakiməsinə bərabər əsasda çıxışının təmin edilməsinin insan hüquqlarının və qanunun aliliyinin təşviqi üçün vacibliyi barədə məlumatlılığı artırmaq.<br>- Qadınların ədalət mühakiməsinə çıxışı ilə və məhkəmə sistemindəki qadınlarla bağlı məlumat və informasiyaların toplanmasını və yayılmasını təşviq etmək. | - Qadınların, o cümlədən müdafiəsiz vəziyyətdə olan qadın qruplarının ədalət mühakiməsinə çıxışı sahəsində bilgilər artacaq.<br>- Qadınların tələbatlarına və situasiyalarına daha yaxşı reaksiya göstərilməsi üçün üzv dövlətlərin qanunvericiliyində və praktikasında dəyişikliklər ediləcək. |
| Ədalət mühakiməsi sistemində | - Qadınların ədalət | - Qadınların, o cümlədən |

| | | |
|---|---|---|
| qadınlara qarşı davamlı ayrı-seçkilik və gender stereotipləri var. | mühakiməsinə çıxışı ilə bağlı müxtəlif maraqlı tərəflərin tələbatlarına uyğunlaşdırılan treninq vasitələri işləyib hazırlamaq və yaymaq.<br>- Qadınların ədalət mühakiməsinə bərabər qaydada çıxışı ilə bağlı müsbət təcrübələri və perspektivli siyasətləri müəyyənləşdirmək və yaymaq. | müdafiəsiz vəziyyətdə olan qadın qruplarının ədalət mühakiməsinə bərabər çıxış hüququ və ədalətli məhkəmə araşdırması hüququ təmin ediləcək.<br>- Üzv dövlətlərin qanunvericiliyində, siyasətində və praktikasında gender amilinin nəzərə alınmasını təmin edən dəyişikliklər ediləcək.<br>- Üzv dövlətlərdə ədalət mühakiməsi sistemləri gender qərəzliliyindən və məhkəmə stereotiplərindən azad olacaq. |

| **4-cü strateji məqsəd:<br>Siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması** | | |
|---|---|---|
| **Gözlənilən təsirlər:<br>Qadınlar və kişilər siyasi və ictimai qərarların qəbulunda bərabər əsasda iştirak edəcəklər** | | |
| **Risklər** | **Riskləri azaldan tədbirlər** | **Nəticə** |
| Bu sahədə əldə edilmiş inkişaf səviyyəsini daha da artırmaq üçün yetərli addımlar atılmır. | - Mövcud standartları yenidən nəzərdən keçirmək və onların tətbiqini monitorinq etmək.<br>- Uğurlu siyasətlər və standartların tətbiqi barədə məlumatlılığı artırmaq və informasiya kampaniyaları keçirmək.<br>- Müsbət və perspektivli təcrübələri müəyyənləşdirmək və yaymaq. | - İrəliləyişin zəif olduğu konkret səviyyələrdə və ya sahələrdə irəliləyişi sürətləndirmək üçün üzv dövlətlərdə məqsədyönlü tədbirlər görüləcək.<br>- Üzv dövlətlərdə müvafiq standartlar tətbiq ediləcək.<br>- Bərabərliyə nail olmaq üçün üzv dövlətlərdə daha güclü qanunvericilik və siyasət tətbiq ediləcək. |
| Dəyişikliklərə müqavimət göstərilməsi qərarları qəbul edən institutlar və orqanlar tərəfindən gender amilinin nəzərə alınması istiqamətində irəliləyişin qarşısını alır. | - Qərarların qəbulu prosesində gender balansının zəruriliyi və faydalılığı barədə bilgiləri artırma və məlumatlandırma fəaliyyətini həyata keçirmək.<br>- Müxtəlif sahələrdə (məhkəmə hakimiyyəti, siyasi partiyalar, kişilərə təlimlər keçilməsi) qərarların qəbulu prosesində gender balansının təşviqində rol oynayan müxtəlif | - Üzv dövlətlərdə demokratik idarəetmə ilə bağlı siyasətin bütün aspektlərinə qadınların və kişilərin balanslı iştirakı məsələsinin daha yaxşı daxil edilməsi üçün addımlar atılacaq.<br>- Qərarların qəbul edilməsində gender balansının gözlənilməsinə şərait yaratmaq üçün məlumatların toplanması, məlumatlılığın artırılması, |

| | | |
|---|---|---|
| | subyektlərə ünvanlanan tədbirlərə dəstək vermək.<br>- Qərarların qəbulu prosesində balansın gözlənilməsi (məsələn, ailə və iş həyatının uzlaşdırılması, medianın rolu) ilə bağlı tədbirlərə dəstək verilməsinə daha ciddi diqqət yetirmək. | müsbət təcrübə nümunələrinin öyrənilməsi və maarifləndirmə tədbirləri də daxil olmaqla üzv dövlətlərdə siyasət və qanunvericilik tədbirlərini özündə birləşdirən kompleks yanaşma tətbiq ediləcək. |

| **5-ci strateji məqsəd:<br>Miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların hüquqlarının qorunması** | | |
|---|---|---|
| **Gözlənilən təsirlər:<br>Miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların hüquqları qorunacaq** | | |
| **Risklər** | **Riskləri azaldan tədbirlər** | **Nəticə** |
| Miqrasiya, inteqrasiya və sığınacaq məsələləri ilə bağlı siyasətdə gender amilinə məhəl qoyulmaması davam edir. | - Miqrant, qaçqın və sığınacaq axtaran qadınların hüquqlarına dair standartları yenidən nəzərdən keçirmək və təkmilləşdirmək.<br>- Miqrasiya, inteqrasiya və sığınacaq məsələlərində gender amilinin nəzərə alınması və tətbiq edilməsi ilə bağlı məsləhətlər vermək.<br>- Miqrant, qaçqın və sığınacaq axtaran qadınların inteqrasiyası və iqtisadi imkanlarının genişləndirilməsi ilə bağlı müsbət və perspektivli təcrübələri müəyyənləşdirmək və yaymaq. | - Üzv dövlətlərin qanunvericilik və siyasətlərində miqrant, qaçqın və sığınacaq axtaran qadınların tələbatlarını və situasiyalarını əhatə edən dəyişikliklər ediləcək.<br>- Üzv dövlətlərdə miqrasiya, inteqrasiya və sığınacaq məsələləri ilə bağlı proseslər və siyasətlər gender bərabərliyi perspektivini özündə ehtiva edəcək.<br>- Üzv dövlətlərdə miqrant, qaçqın və sığınacaq axtaran qadınlar iqtisadi cəhətdən müstəqil olacaq və sosial hüquqlarından tam istifadə edəcəklər. |
| Müxtəlif zorakılıq formaları ilə qarşılaşan miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların müdafiə edilməsi və onlara yardım göstərilməsi üçün adekvat və səmərəli vasitələr çatışmır. | - Zorakılıq qurbanı olan miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların lazımi müdafiəsini təmin etmək üçün vasitələr (məsələn, təlimatlar) hazırlamaq.<br>- Miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızların insan hüquqlarını təşviq edən standartlarla bağlı məlumatlılığın artırılması vasitələrini (məsələn, informasiya bülletenlərini) hazırlamaq. | - Müvafiq sənədlər, xüsusən İstanbul Konvensiyası, habelə insan alverinə qarşı konvensiya və Lanzarot Konvensiyası ratifikasiya olunacaq və tətbiq ediləcək.<br>- Zorakılıqla qarşılaşan miqrant, qaçqın və sığınacaq axtaran qadın və qızlar zorakılığın qarşısının alınması, zorakılıqdan müdafiə, təqsirkarların məsuliyyətə cəlb olunması və zərərçəkənlərin dəstəklənməsi üzrə müvafiq xidmətlərə çıxış imkanı əldə |

| | | |
|---|---|---|
| | | edəcəklər. |

| **6-cı strateji məqsəd:<br>Bütün siyasət və tədbirlərdə gender bərabərliyinin nəzərə alınmasına nail olmaq** | | |
|---|---|---|
| **Gözlənilən təsirlər:<br>Gender bərabərliyi perspektivi bütün siyasət və tədbirlərə daxil ediləcək** | | |
| **Risklər** | **Riskləri azaldan tədbirlər** | **Nəticə** |
| Gender amilinin nəzərə alınması barədə tam anlayış və bilgilər yoxdur. | - Gender amilinin nəzərə alınmasına dair informasiyaları və təlim vasitələrini yaymaq.<br>- Gender amilinin nəzərə alınmasına dair treninqlər keçirmək.<br>- Gender amilinin nəzərə alınması ilə bağlı müsbət və perspektivli təcrübələri müəyyənləşdirmək.<br>- Müxtəlif sektorlarda fəaliyyət göstərən müvafiq subyektlər arasında əməkdaşlığı təşviq etmək və dəstəkləmək. | - Üzv dövlətlərdə siyasəti hazırlayan müvafiq subyektlər öz işlərində gender amilinin nəzərə alınması ilə bağlı bilik və təcrübəyə sahib olacaqlar.<br>- Gender bərabərliyi aspektləri üzv dövlətlərdə və Avropa Şurası səviyyəsində gündəlik siyasətin müəyyənləşdirilməsinin tərkib hissəsinə çevriləcək. |
| Maraqlı tərəflər öz fəaliyyətlərində gender bərabərliyini nəzərə almaq üçün yetərli addımlar atmırlar. | - Gender amilinin nəzərə alınmasını dəstəkləmək məqsədilə müxtəlif sektorları məsləhətlərlə təmin etmək, o cümlədən onlara standartların müəyyənləşdirilməsi və tətbiqi barədə məsləhətlər vermək.<br>- Müxtəlif siyasət sahələrində gender amilinin nəzərə alınmasını asanlaşdırmaq üçün siyasətin məqsədyönlü təhlilinin aparılmasına dəstək göstərmək.<br>- Müxtəlif siyasət sahələrində gender bərabərliyi ilə bağlı araşdırmaları və cins əlaməti üzrə bölünmüş məlumatların toplanmasını təşviq etmək və dəstəkləmək. | - Gender bərabərliyi perspektivi geniş çeşidli siyasət sahələrini bütünlüklə əhatə edəcək və beləliklə həmin sahələr üzv dövlətlərin vətəndaşlarının tələbatlarına daha yaxşı cavab verəcək.<br>- Gender məsələlərinə dair biliklərin təkmilləşdirilməsi və məlumatların əlçatanlığının yaxşılaşdırılması üzv dövlətlərin bütün siyasət sahələrində gender təhlilindən sistematik istifadə edilməsinə imkan verəcək. |

## ƏLAVƏ II. Qısaltmaların siyahısı

| | |
|---|---|
| **CEDAW** | BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası |
| **Konvensiya** | Avropa İnsan hüquqları Avropa Konvensiyası |
| **QSK** | Qadınların Statusu üzrə Komissiya |
| **Aİ** | Avropa İttifaqı |
| **GBK** | Gender Bərabərliyi Komissiyası |
| **GBM** | Gender bərabərliyi məsələləri üzrə məruzəçi |
| **GBMQ** | Gender Bərabərliyi Məsələləri Qrupu |
| **BQHT** | Beynəlxalq qeyri-hökumət təşkilatları |
| **İstanbul Konvensiyası** | Avropa Şurasının Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Konvensiyası |
| **Lanzarot Konvensiyası** | Avropa Şurasının Uşaqların seksual istismardan və seksual zorakılıdan müdafiəsi haqqında Konvensiyası |
| **QHT** | Qeyri-hökumət təşkilatları |
| **ADT** | Amerika Dövlətləri Təşkilatı |
| **İƏİT** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| **BMTİHAK** | BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı |
| **ATƏT** | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| **Strategiya** | Avropa Şurasının "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası" |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **YUNESKO** | Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| **YUNİSEF** | Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu |
| **BMT DİM** | Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf Məqsədləri" |
| **"BMT-Qadınlar" strukturu** | Birləşmiş Millətlər Təşkilatının Gender bərabərliyi və qadınların hüquq və imkanlarının genişləndiriləsi üzrə strukturu |